14 yanvar 2022 №3 (1876) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## “Azərbaycan artıq o ölkə deyil ki, onun mənafelərinə etinasızlıq göstərilsin”



Müharibənin başa çatmasından bir il keçəndən sonra beynəlxalq birliyin reaksiyası məni qane edir. Lakin deməliyəm ki, bu, çox cəhətdən bizim fəaliyyətimiz nəticəsində baş verib. Ona görə ki, müharibə qurtarandan sonra, elə ertəsi gün mənim tapşırığımla biz işə başladıq ki, müharibənin nəticələri bütün beynəlxalq birlik tərəfindən qəbul edilsin. Yəni, biz, belə deyək, bircə gün də həm ərazilərin bərpası baxımından, həm də artıq dediyim kimi, yüzlərlə kilometrlik sərhədin qaydaya salınması, beynəlxalq birliyin bunu qəbul etməsi baxımından nail olduğumuz işləri dayandırmamışıq.

Prezident İlham Əliyev bu sözləri yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində bildirib.

Dövlət başçısı vurğulayıb ki, müharibədən sonrakı yeni geosiyasi reallığın ayrı-ayrı ölkələr, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilməsi prosesi tədricən gedib, lakin hər halda biz buna nail olmuşuq: “ATƏT-in Minsk qrupunun həmsədrlərinin ilk bəyanatlarını yada salsaq görərik ki, onlar yeni reallıqlardan tamamilə uzaq idi. Biz orada vaxtaşırı həm münaqişə mövzularını, həm də digər qəbuledilməz məsələləri görürdük. Lakin sonradan, onların bəyanatlarına baxsaq indi artıq həm 10 noyabr tarixli üçtərəfli Bəyanata, həm də başqa sənədlərə istinadlar görərik. Yəni, reallıq artıq üstünlük təşkil edir. Bir də ki, bilirsiniz, Azərbaycan artıq o ölkə deyil ki, onun mənafelərinə etinasızlıq göstərilsin. Əlbəttə, biz heç vaxt özümüzü şişirməmişik və şişirtməli deyilik, lakin lazımınca qiymətləndirməmək də gərək deyil. Biz öz konstitusion hüquqlarımız çərçivəsində, BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı çərçivəsində yeni reallıq yaratmışıq və hamı bu reallıqla hesablaşmalıdır. Bu, asan məsələ deyildi. Bu, ictimaiyyətə görünməyən iş idi. Ona görə ki, biz bu işi açıq şəkildə görə bilməzdik. Əks halda özümüzə ziyan vura bilərdik. Ona görə bu, daimi iş idi. Nəticədə bu gün beynəlxalq təşkilatlar – BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa İttifaqı, MDB bu reallıqları tamamilə qəbul ediblər”.

### Həmişə qaliblərin dostları çox olur

Prezident qeyd edib ki, biz bunu həm formal mənada, həm də ünsiyyətdə görürük: “Üstəlik, mən beynəlxalq strukturların çoxsaylı rəhbərləri və dövlət başçıları ilə əlaqədə olarkən müşahidə edirəm, indi biz öz haqq işimizə qat-qat artıq dəstək görürük. Bəli, amma bunlar hər şey başa çatandan sonra belə olub. Əlbəttə, çoxları bizə deyir ki, siz haqlı idiniz, siz hər şeyi düzgün edirdiniz, biz həmişə sizin tərəfinizdə olmuşuq. Lakin nədənsə çoxları bu barədə susmağı üstün tuturdu. Amma bilirsiniz, həmişə qaliblərin dostları çox olur. Biz bunu tarixdə dəfələrlə görmüşük, lakin hər halda bu, müsbət addımdır, xüsusən deməliyəm ki, buna İkinci Qarabağ müharibəsinin necə getməsi də yəqin ki, təsir göstərib”.

davamı səh. 2-də

## Ölkəmiz Qətərdə beynəlxalq kitab sərgisində təmsil olunur

Yanvarın 13-də Qətərin paytaxtı Doha şəhərində 31-ci Beynəlxalq Kitab Sərgisi işə başlayıb. Dünyanın 37 ölkəsinin təmsil olunduğu sərgidə Azərbaycan da iştirak edir.

Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının birgə təmsil olunduğu sərgidə ölkəmizə dair ekspozisiya qurulub. Ekspozisiyada Azərbaycan, ərəb və ingilis dillərində kitablar yer alıb.

Ölkəmizin stendində Prezident İlham Əliyevin 2021-ci ili “Nizami Gəncəvi İli” elan etməsi ilə bağlı sərəncamına müvafiq olaraq dahi şair və mütəfəkkirin nəfis tərtibatda nəşr edilmiş “Xəmsə”si, professor Y.Bertelsin “Böyük Azərbaycan şairi Nizami” kitabının ingilis və ərəb dillərində nəşrləri, Azərbaycan Dövlət Tərcümə Mərkəzi tərəfindən ərəb dilində nəşr edilmiş kitablar və ölkəmizin tarixinə, mədəniyyətinə, ədəbiyyatına, eləcə də 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı Zəfərə həsr olunmuş kitablar nümayiş olunur.

Sərginin açılışına Qətərin mədəniyyət naziri və digər rəsmi şəxslər qatılıb. Mədəniyyət Nazirliyinin Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli, Milli Kitabxananın direktoru Kərim Tahirov sərgidə iştirak edirlər.

Qətər Mədəniyyət Nazirliyinin himayəsi ilə keçirilən sərgi yanvarın 22-dək davam edəcək.



Qətərin paytaxtı beynəlxalq kitab sərgisinə ilk dəfə 1972-ci ildə ev sahibliyi edib. 2002-ci ilədək sərgi iki ildən bir təşkil edilib, ondan sonra hər il keçirilir. 2010-cu ildən başlayaraq hər sərginin fəxri qonaq ölkəsi olur. 31-ci Doha Beynəlxalq Kitab Sərgisinin fəxri qonağı ABŞ-dır.

## “Bizi birləşdirən mədəniyyət”

Yanvarın 12-də Heydər Əliyev Sarayında istedadlı rəssam Nərgiz Quliyevanın fərdi sərgisi açılıb.



Sərgi Mədəniyyət Nazirliyi və “Mədəniyyət” kanalının birgə həyata keçirdiyi “Bizi birləşdirən mədəniyyət” layihəsi çərçivəsində təşkil olunub.

Sərgidə Azərbaycan Rəssamlar İttifaqının üzvü, “Nargiz Art Studio”nun rəhbəri Nərgiz Quliyevanın müxtəlif mövzularda çəkdiyi tablolar yer alıb. Rəssam əsərlərində multikulturalizm, təbiət mövzularına, peyzaj janrına üstünlük verir. Rəsmlərdə əsas məqsəd ətraf aləmin gözəlliklərini tamaşaçılara çatdırmaqdır.

Tədbirdə layihənin ideya müəllifi, Heydər Əliyev Sarayının direktoru, Əməkdar artist Ramil Qasımov çıxış edərək layihənin əhəmiyyətindən danışıb. Bildirib ki, bizi bir-birimizə zəngin köklərə malik olan mədəniyyətimiz bağlayır.

Sonra iştirakçılar sərgi ilə tanış olublar.

## Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın yeni ildə ilk toplantısı

Yanvarın 12-də Milli Kitabxanada Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın 2022-ci ilin planlarına həsr olunan toplantısı keçirildi.



İctimai Şuranın sədri Gəray Əlibəyov iştirakçıları salamlayaraq görüşün həm də hesabat xarakteri daşıdığını diqqətə çatdırdı və şuranın tərkibində fəaliyyət göstərən işçi qrupları barədə məlumat verdi.

Bildirildi ki, 2022-ci ildən İctimai Şuranın tərkibində 4 işçi qrupu fəaliyyət göstərəcək. Aktyor və rejissor, Xalq artisti Vidadi Həsənovun rəhbərlik etdiyi işçi qrupu ölkəmizdəki özəl teatrların fəaliyyəti və inkişafına dəstək məqsədilə yaradılıb. Mart ayında işçi qrupu özəl teatrların festivalını təşkil edəcək.

Digər işçi qrupa aktyor və bədii qiraətçi, Əməkdar artist Azad Şükürov rəhbərlik edir. Bu işçi qrupu sənətə marağı olan gənclərə ustad dərsləri keçəcək. Bu dərslər orta məktəbdə müxtəlif sənət sahələri üzrə qabiliyyət imtahanına hazırlaşan şagirdlər üçün nəzərdə tutulub. Layihənin məqsədi regionlarda olan istedadlı uşaqları aşkar etməkdir.

davamı səh. 3-də

## Fotoqraf-rəssam Pərviz Quliyevin 80 illiyi qeyd olundu

Əməkdar mədəniyyət işçisi, tanınmış fotoqraf-rəssam Pərviz Quliyevin 80 illik yubileyi yanvarın 11-də Beynəlxalq Muğam Mərkəzində (BMM) qeyd edildi.

Azərbaycan kinematoqrafiyasının fədakar veteranını təbrik etməyə təkcə qohumları və dostları deyil, uzun illər çiyin-çiyinə çalışdığı mədəniyyət xadimləri də gəlmişdi. Əvvəlcə BMM-in foyesində Pərviz Quliyevin milli kinomuzun bələdçisi olan fotolarından ibarət videoçarx təqdim edildi.

Tədbiri Əməkdar mədəniyyət işçisi, telejurnalist Rahib Azəri açaraq Azərbaycan kinosunun tarixi səhifələri və kinoda fotoqraf sənəti haqqında düşüncələrini bölüşdü.

davamı səh. 5-də

## “Qafqaz Albaniyası və albanlar”

Görkəmli tarixçi alim, albanşünas Fəridə Məmmədovanın “Qafqaz Albaniyası və albanlar” kitabı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) tərəfindən ingilis dilində nəşr edilib.




Qurumun mətbuat xidmətindən bildiriblər ki, kitabın ingilis dilinə tərcüməsi və nəşri “Qafqaz Albaniyasını öyrənirik” layihəsi çərçivəsində həyata keçirilib.

Ötən ilin dekabrında dünyasını dəyişən Fəridə Məmmədova hələ sovetlər dönəmində ilk dəfə Qafqaz Albaniyasında feodal münasibətlərinin genezisi problemini tədqiq edib. O, tarixşünaslıqda uzun müddət hakim olmuş I–VII əsrlərdə Albaniyada ibtidai-icma quruluşunun mövcudluğu fikrinin yalan olduğunu sübut edərək, burada feodal münasibətlərinin yaranması və inkişafını elmi şəkildə əsaslandırıb. F.Məmmədova alban dövlətinin e.ə. IV – b.e. VII əsrlərinə aid sərhədlərini müəyyən edib, Albaniyada xristianlığın yayılması və alban kilsəsinin yaranması tarixini tədqiq edərək, Ermənistan dövlətinin bu ərazidə deyil, kiçik Asiyada mövcud olmasını sübut edib.

Kitabın baş redaktoru Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədri, akademik Kamal Abdulla, elmi redaktoru AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun əməkdaşı Ülviyyə Hacıyeva, layihə rəhbəri BBMM-in icraçı direktoru Rəvan Həsənovdur.




## “İRS” jurnalı ivrit dilində Azərbaycanın Qarabağ Zəfərindən bəhs edir

səh. 8

## “Türk Dünyasının Mədəniyyət Paytaxtı”nın Serbiyada tanıtımı




Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un layihəsi üzrə 2022-ci ildə “Türk Dünyasının Mədəniyyət Paytaxtı” elan edilən Bursa şəhərinin Serbiyada təqdimat mərasimi keçirilib.

Təqdimat zamanı Bursanın ənənəvi xörəkləri, el sənətkarlığı nümunələri (çini işləri, ənənəvi üsulla hazırlanan məhrəbalar) və “Hacivat-Karagöz” kukla şousu böyük marağa səbəb olub.

Baş katib Düsen Kaseinov bildirib ki, TÜRKSOY ortaq mədəniyyətimizi, tariximizi, incəsənətimizi, adət-ənənələrimizi tədqiq və inkişaf etdirərək gələcək nəsillərə ötürməklə bərabər, dost ölkələr və xalqlarla qarşılıqlı əlaqələrə də önəm verir: “Türk dünyasının mədəniyyət paytaxtları ilə Avropanın mədəniyyət paytaxtları arasında qarşılıqlı əlaqəni artırmaq üçün son beş ildə mühüm səylər göstərmişik. Ötən illərdə göstərdiyimiz səylər bu il öz müsbət nəticəsini verdi”.

səh. 3

“İnanclardan qaynaqlanan ornamentlər”



səh. 6

“Öyrədərək öyrənirəm” layihəsi üzrə ustad dərsləri davam edir

səh. 3



Qaragöz kuklam

səh. 7

# "Azərbaycan artıq o ölkə deyil ki, onun mənafelərinə etinasızlıq göstərilsin"

## "Xarici diplomatlar və jurnalistlər Qarabağda kilsələrin yerində olduğunu görəndə UNESCO-nun gəlməsi mövzusu gündəlikdən çıxarıldı"

*əvvəli səh. 1-də*

Dövlət başçısı bildirib ki, Azərbaycan müharibəni ləyaqətlə, beynəlxalq humanitar normaları pozmadan aparıb: "Mən dəfələrlə demişəm, erməni tərəfdən dinc əhali arasında itki az olub. Olan qurbanlar da yalnız müharibədə iştirak edən dinc vətəndaşlar olub. Erməni tərəfi isə alçaqcasına hücumlar edib, bizim şəhərlərimizi daim bombalayıb. Təkcə Tərtərə 16 min mərmi düşüb. Təsəvvür edin, kiçik bir şəhər və 16 min mərmi. Bəs Gəncə, bəs Şuşa, "Skad"lar, "İskəndər"lər!".

Prezident bu xüsusda müharibənin bir epizodu barədə də danışıb. Bildirib ki, Azərbaycan Ordusu Zəngilan istiqamətində Ermənistanla sərhədə doğru irəliləyəndə və Ağbənd qəsəbəsinə bir neçə kilometr qalan vaxt erməni tərəfi Rusiya tərəfinə müraciətlə xahiş edib ki, Rusiyanın Gümrüdəki hərbi bazasının kontingentinin bir hissəsi sərhədə ezam edilsin: "Bunu onunla əsaslandırmaq istəyirdilər ki, guya Azərbaycan Ermənistan ərazisinin Mehri hissəsini ələ keçirmək niyyətindədir. Hərçənd bizim belə niyyətimiz yox idi. Bununla belə Gümrüdəki Rusiya bazasının çox məhdud kontingenti oraya ezam edildi. Bu operativ informasiya bizdə vardı. Bu hadisə baş verəndən dərhal sonra erməni silahlı qüvvələri rusiyalı hərbi qulluqçuların arxasından Azərbaycan qoşunlarını atəşə tutmağa başladılar. Orada məsafə çox kiçik idi, buna görə onlar minomyotlardan da atəş açırdılar. Orada biz tələfat verdik. Lakin təbii ki, biz cavab verdik və dərhal Rusiyaya müraciət etdilər ki, Azərbaycan rusiyalı hərbi qulluqçuları atəşə tutur. Bu dərəcədə alçaqlığı təsəvvür etmək olarmı? Yeri gəlmişkən, Rusiya tərəfi sonralar, artıq bizimlə kontaktlarda bu hadisəni eyni ilə mənim kimi qəbul edirdi: bu, alçaqlıqdan başqa bir şey deyil. Yəni istəyirdilər ki, biz erməni mövqelərinə cavab atəşi açmaqla rusiyalı hərbi qulluqçulara ziyan vuraq, onlar öz məqsədlərinə çatsınlar və Rusiyanı bu müharibəyə cəlb etsinlər".

"Müharibə dövründə baş verən çox hadisələr erməni tərəfin hərəkətlərinin alçaq xarakterinə sübutdur", – deyə İlham Əliyev əlavə edib: "Hətta öz hərbi qulluqçularına münasibətdə. Səngərlərdə, maşınlarda, yük maşınlarında zəncirlə bağlanmış vəziyyətdə ölən erməni hərbi qulluqçularını nə qədər tapdıq. Ermənistanın hərbi və siyasi komandanlığı fərarilərin yerindəcə güllələnməsi barədə göstəriş vermişdi. Bütün bu informasiya bizdə var. Ona görə ki, biz təkcə Qarabağda deyil, Ermənistan ərazisinin çox hissəsində də bütün məkanı izləmişik. Buna görə baş verənlər haqqında mötəbər informasiyaya malik idik. Yeri gəlmişkən, indi də belədir".

Dövlət başçısı vurğulayıb ki, müharibədən sonrakı geosiyasi reallığın dünyada qəbul edilməsində bir sıra amillər rol oynayıb: "Fikrimcə, növbəti amil odur ki, biz işğaldan azad edilmiş ərazilərə dərhal müxtəlif ölkələrdən olan diplomatların, jurnalistlərin, ictimaiyyət nümayəndələrinin səfərlərini təşkil etdik. Onlar hamısı şokda idi. Elə biz hamımız da. Orada olan hər birimiz, sadəcə, şok vəziyyətinə düşürdük. Ona görə ki, biz vandalizmin və barbarlığın miqyasını bilmirdik. Bu da ermənilərin bütün ideoloji konsepsiyasını tamamilə alt-üst edirdi ki, guya onlar sivil xalqdır, qədim xalqdır, barbar müsəlmanların əhatəsində qalıblar, Qafqazda xristianlığın nəticəsi olan nəcib xalqdır. Məgər nəcib xalq belə hərəkət edə bilərmi? Ölüləri qəbirdən çıxarıb onların qızıl dişlərini çıxartmaq, qəbirüstü daşları sındırıb qonşu ölkələrə satmağa aparmaq, məscidləri dağıtmaq, orada donuz saxlamaq.



Biz bütün bunları göstərdik, hərçənd heç nə göstərməyə ehtiyac yox idi, sadəcə, adamların oraya gəlməsi lazım idi ki, özləri baxıb görsünlər. Mən hələ işğal dövründə müsəlman ölkələrə müraciətlə deyəndə ki, ermənilər dəhşətli hadisələr törədir, bütün müsəlmanların müqəddəs ziyarətgahlarını təhqir edirlər, bəlkə də çoxları buna inanmırdı, lakin indi özləri bunu görəndən sonra necə qəbul edəcəklər? Yəni burada baş verənlərin dərk edilməsində, bizim təkcə tarixi, hüquqi və siyasi baxımdan deyil, həm də xalis insanlıq baxımından haqlı olmağımızı dərk etməkdə daha bir dönüş baş verdi. Biz belə hərəkətlər etməmişik".

### Biz illər boyu UNESCO-nu dəvət edirdik...

Prezident daha sonra deyib: "Hazırda bizim nəzarətimizdə olan kəndlərdə, – mən ermənilərin yaşadıqları kəndləri nəzərdə tuturam, – hər şey salamatdır. Bir il keçib, mən Hadrutda olmuşam, orada bircə binaya da toxunulmayıb. İşğal dövründə orada əsasən ermənilər yaşayırdı. Bu, ümumiyyətlə, Azərbaycan xalqının xarakterinə ziddir. Heç bir qəbirüstü daş sındırılmayıb, heç bir kilsə dağıdılmayıb. Amma yəqin bilirsiniz, UNESCO ilə bağlı epopeyanı deyirəm, onlar bizi az qala vandalizmdə təqsirləndirməyə çalışırdılar, düşünürdülər ki, indi biz kilsələri dağıdacağıq. Biz ermənilərin buraya gəlməsi marşrutunu onlarla razılaşdırdıq. Onlar da, onlarla əlaqədə olan bəzi ölkələr də çox təkidlə buraya gəlmək istəyirdilər. Biz işğaldan azad edilmiş ərazilərə xarici diplomatların və əcnəbi jurnalistlərin səfərlərini təşkil edəndə, onlar bu kilsələrin və bu qəbirlərin yerində olduğunu görəndə UNESCO-nun gəlməsi mövzusu gündəlikdən çıxarıldı...".

Dövlət başçısı xatırladıb ki, Azərbaycan işğal dövründə dəfələrlə UNESCO-ya müraciət edərək təşkilatı regiona missiya göndərməyə çağırırdı: "Biz bütün illər boyu onları dəvət edirdik. Cavab necə olurdu? Deyirdilər ki, UNESCO siyasi məsələlərlə məşğul olmur. İkinci Qarabağ müharibəsi başa çatan kimi onlar təkidlə buraya gəlməyi xahiş etməyə başladılar. Biz marşrutları razılaşdırdıq və sair. Bu müddətdə baş verənlər məlumdur. Onlar özləri də gördülər ki, biz heç nəyi dağıtmırıq, amma buraya gələndə dağıdılmış məscidləri, dağıdılmış qəbiristanlıqları, tarixi abidələri, dağıdılmış şəhərləri görəcəklər, sadəcə, bunu kimin etdiyini deməyə məcbur olacaqlar. Deməli, bunu etmək istəmirlər. Bütün bu amillər, üstəgəl bizim fəal diplomatik işimiz bu reallıqların dünyada qəbul edilməsinə şərait yaratdı. Hesab edirəm ki, bu, böyük uğurdur. Ona görə ki, bu müharibədən sonra, əslində, biz müharibə başlayacağı halda nələr baş verəcəyi barədə dünya miqyaslı himayədarları olan Ermənistanın bütün proqnozlarını, bütün fərziyyələrini alt-üst etdik. Əlbəttə, düşünürəm ki, dünya Azərbaycan xalqının öz torpağına nə qədər sadiq olduğunu, hər şeyə – qurbanlar verməyə də, böyük riskə də nə dərəcədə hazır olduğunu gördü və bu amil də rol oynadı. Ona görə ki, sentyabrın 27-də ermənilərin himayədarlarının reaksiyasını hətta mən də – bunu bilən və ya güman edə biləcək adam da fərz edə bilməzdik. Bütün bunlar öz rolunu oynadı. Buna görə də bizim xalqımıza və ölkəmizə hörmət inanılmaz dərəcədə artdı. Biz bunu görürük. Bunu hər kəs, hər bir azərbaycanlı, Azərbaycandan uzaqda yaşayan hər kəs görür və hiss edir. İkinci Qarabağ müharibəsi təkcə ərazilərin azad edilməsi, təkcə milli ruhun oyanması və ləyaqət hissinin qaytarılması demək deyil, bu, çox böyük multiplikativ, müsbət effektdir və düşünürəm ki, daim müsbət təsir göstərəcək".

Prezident İlham Əliyev müsahibəsində münaqişənin və Azərbaycan torpaqlarının işğalının davam etdiyi 30 il müddətində heç bir irəliləyişə nail olmayan ATƏT-in Minsk qrupu ilə mövcud vəziyyətdəki münasibətə də toxunub. "Hesab edirəm ki, onlar indi yubiley tədbirlərinə hazırlaşırlar. Çünki bildiyiniz kimi, Minsk qrupu 1992-ci ildə yaradılmışdır və bu il 30 illiyidir", – sözünə zarafatla başlayan dövlət başçısı deyib: "Amma əgər bu zarafatları kənara qoysaq, hesab edirəm ki, onlar özləri üçün bir gündəlik formalaşdırmalıdırlar. Bu, bizim işimiz deyil. Halbuki, mənim təsəvvürüm var ki, onlar nə ilə məşğul olmalıdırlar və nə ilə məşğul olmamalıdırlar. Nə ilə məşğul olmamalıdırlar, mən deyə bilərəm. Onlar Dağlıq Qarabağ münaqişəsi ilə məşğul olmamalıdırlar, çünki bu münaqişə həll olunub. Biz onların yerinə bu məsələni həll etdik. Onların görünməməsinin səbəbi də hesab edirəm ki, bundan qaynaqlanır. Çünki onlar üçün nə qədər çətin olsa da, bu yeni reallığı qəbul etməlidirlər. Bilməlidirlər ki, onlar bundan sonra Qarabağ məsələsi ilə məşğul olmayacaqlar. Çünki buna biz imkan verməyəcəyik. Biz bu münaqişənin bir tərəfi idik. Əgər bir tərəf deyir ki, bu münaqişə həll olunub, deməli, burada vasitəçiliyə yer qalmır və bizim mövqeyimiz onlara çatdırılıbdır. Nə ilə məşğul olacaqlar, yəqin ki, özləri fikirləşməlidirlər. Bildiyimə görə, indi həmsədrlər arasında da əvvəlki dövrlərdəki kimi birlik yoxdur. Mənim mülahizələrim buna dəlalət edir. Həm bu ölkələr arasındakı münasibətlər son vaxtlar xüsusilə çox gərginləşib, eyni zamanda, keçmiş münaqişə və indiki vəziyyətlə bağlı onların fərqli fikirləri var. Məncə, onlar öz aralarında bir razılığa gələ bilmirlər. Hər halda onların fəaliyyətinin belə aşağı səviyyədə olması bizi qətiyyən narahat etmir, bəlkə də əksinə. Prinsipcə 30 il böyük iş stajıdır, pensiya ərəfəsindədirlər. Ona görə onlara uzun ömür, cansağlığı arzulayıram".

Prezident müharibədən sonrakı bir ildən artıq müddətdə erməni tərəfin törətdiyi təxribatlar, o cümlədən yanvarın 11-də sərhədin Kəlbəcər rayonu istiqamətində baş verən gərginliklə bağlı suala da cavab verib. Qeyd edib ki, Ermənistanda revanşist meyillər təkcə keçmiş hakimiyyət nümayəndələri tərəfindən yox, eyni zamanda, indiki hakimiyyət nümayəndələri tərəfindən özünü büruzə verir, istisna deyil ki, bundan sonra da belə cəhdlər ediləcək. "Ermənistan rəhbərliyi və bütövlükdə cəmiyyəti müharibədəki məğlubiyyətindən hələ özünə gələ bilməyib. Onlara elə bir ciddi psixoloji zərbə vurulub, psixoloji cəhətdən elə zədələniblər ki, onların indi bütün ideoloji əsasları darmadağın edilib... Ona görə belə meyillər davam edəcək... Heç vaxt unutmamalıyıq ki, biz hansı qonşu ilə qonşuluqda yaşayırıq. Sərhəddə törədilmiş təxribatlar da bundan qaynaqlanır. Onlar bizi yenə də sınağa çəkmək istəyirlər. Ola bilsin, dünənki təxribatın mənşəyi də son vaxtlar MDB məkanında baş vermiş hadisələrdir və hesab edirlər ki, bunların imkanları artıb, yaxud da haradansa dəstək ala bilərlər. Amma unutmamalıdırlar ki, İkinci Qarabağ müharibəsindəki kimi, kimin onlara yardım edəcəyindən asılı olmayaraq, biz istədiyimizə nail olacağıq və heç kim bizi dayandıra bilməz, heç nə bizi dayandıra bilməz. Bizi dayandıran sadəcə odur ki, üçüncü müharibə istəmirik, bu, bizim planlarımızda yoxdur. Biz istəyirik ki, müharibə dövrü başa çatsın, istəyirik ki, normal əlaqələr yaradılsın, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, nəhayət, tanısın. Biz bunu istəyirik. Amma əgər biz görsək ki, dediyim kimi, bizim üçün təhlükə var, o təhlükə elə yerindəcə məhv ediləcək...".

### "İstəmirlər, olmasın, onda görərik nə olacaq"

Prezident qeyd edib ki, Azərbaycan, əslində, sülh gündəliyini erməni tərəfə təqdim edib və delimitasiya ilə bağlı, əgər o baş tutarsa, ondan sonra demarkasiya ilə bağlı çox aydın təkliflər irəli sürüb. İlkin mərhələdə Ermənistan cavab vermirdi, nə hə, nə yox deyirdi: "Yəni, bu, bir daha onu göstərir ki, Ermənistan rəhbərliyində gələcəklə bağlı açıq-aydın təsəvvür yoxdur. Bizim siyasətimiz isə tam aydındır - istər müharibə ilə bağlı, istər keçmiş Qarabağ münaqişəsinin baş vermiş həlli ilə bağlı, istər gələcəklə bağlı. Biz təklif etmişik ki, hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanısın, sərhədlərin delimitasiyası ilə bağlı işlərə start verilsin, kommunikasiyaların açılması prosesinə start verilsin və sülh müqaviləsi imzalansın. Yəni, sülh müqaviləsinin imzalanması 100 faiz qarantiya olmasa da, hər halda, müharibə riskini böyük dərəcədə minimuma endirir. Halbuki biz onu da bilməliyik ki, istənilən sülh müqaviləsi Ermənistan üçün, sadəcə, kağız parçası ola bilər. İndi imzalansa da, imzalanmasa da, biz dediyim kimi, öz hərbi gücümüzü, qüdrətimizi daim artıracağıq və artırmalıyıq...".

Dövlət başçısı əlavə edib ki, Ermənistanın rəsmi dairələri bu məsələ ilə bağlı öz fikrini hələ formalaşdıra bilməyib: "Bir tərəfdən, onlar başa düşürlər ki, sülh müqaviləsi olmasa və güclü Azərbaycan mövcud olduğu halda onların müəyyən narahatlığı ola bilər. Digər tərəfdən başa düşürlər ki, sülh müqaviləsi imzalanarsa, orada mütləq hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü tanıması müddəası olmalıdır və onlar buna hazır olmalıdırlar. Ona görə, bilirsiniz, necə deyərlər, iki daş arasında qalıblar. Ancaq seçim etməlidirlər, düzgün seçim etməlidirlər. Mən demişəm, bizim xoşniyyətli davranışımız şərt deyil ki, əbədi olacaq və şərt deyil ki, bu təkliflər əbədi masa üzərində qalacaq. Əgər bizim ərazi bütövlüyümüzü tanımaq istəmirlərsə, o zaman biz də onların ərazi bütövlüyünü tanımayacağıq. Bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün bəlkə də yüz dəfə daha çox əsasımız var, nəinki onların bizim ərazi bütövlüyümüzü tanımaması üçün. Çünki hər kəs artıq bunu yaxşı bilir, dünya ictimaiyyəti də bilir ki, 1920-ci ilin noyabr ayında tarixi torpağımız Zəngəzur bizdən ayrılıb Ermənistana birləşdirildi, Göyçə də həmçinin. İrəvan şəhəri 29 may 1918-ci ildə Ermənistana verildi. Yəni, bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün, necə deyərlər, bir çox amillərimiz var. Amma buna baxmayaraq, gələcək sülh naminə, ölkələr arasındakı əlaqələrin qurulması naminə biz buna hazırıq. Amma mən qarantiya verə bilmərəm ki, bu, altı aydan sonra da eyni olacaq. İstəmirlər, yaxşı, onda olmasın, onda görərik nə olacaq...".

Prezident onu da xatırladıb ki, erməni tərəf əvvəlcə həm dəmiryolunun tikintisinə, xüsusilə avtomobil yolunun tikintisinə etiraz edirdi və deyirdilər ki, yox, bu, olmayacaq: "Sonra mən müsahibələrimin birində dedim ki, istəsə də, istəməsə biz bunu edəcəyik. Bunu, deyəsən, aprel ayında demişdim və nəticə etibarilə indi avtomobil yolunun, Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasındakı avtomobil yolunun çəkilişinə də razılıq verib. Yəni, mən demək istəmirəm ki, biz onları məcbur etmişik, biz heç bir zor tətbiq etməmişik. Ola bilər ki, bizim, necə deyərlər, siyasi addımlarımız, diplomatik addımlarımız, eyni zamanda, bölgədə gedən proseslər göstərir ki, bunu artıq təkcə Azərbaycan yox, bir çox region ölkələri istəyir. Ona görə bu tarixçəyə nəzər salsaq görərik ki, Ermənistanın mövqeyində dəyişiklik baş verir. Ona görə istisna edilmir ki, bu gün inkar etdiyi sülh müqaviləsinin imzalanmasına da nə vaxtsa hazır olacaq. Ancaq yenə də deyirəm, elə bilməsinlər ki, biz daim onlardan sülh tələb edəcəyik. Biz, sadəcə olaraq, regionun gələcəyi naminə və müharibə riskinin sıfıra endirilməsi naminə bu təklifi edirik. Yenə də deyirəm, əgər Ermənistan buna hazır deyilsə, onda bu, olmayacaq. Olmasa nə olacaq? Heç nə. Biz nə itirəcəyik? Heç nə itirməyəcəyik, nə bu gün, nə sabah. Bəlkə də əksinə. Amma itirən tərəf Ermənistan olacaq...".

---

# Atçılıq Turizm və Milli Atüstü Oyunlar Mərkəzi DSX-nin tabeliyinə verilib

Mədəniyyət Nazirliyinin tabeliyində olan Respublika Atçılıq Turizm və Milli Atüstü Oyunlar Mərkəzi ştat vahidləri və ona məxsus əmlakla birlikdə Dövlət Sərhəd Xidmətinin tabeliyinə verilib.

Baş nazir Əli Əsədov bu barədə qərar imzalayıb.

Qərara əsasən, Mədəniyyət Nazirliyi, Dövlət Sərhəd Xidməti və İqtisadiyyat Nazirliyi bu qərardan irəli gələn məsələləri qanunvericiliyin tələblərinə uyğun olaraq həll etməlidir.

# Dövlət Xidmətinə ayrılan avtomobillərin sayı artırılıb

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə ayrılan xidməti minik avtomobillərinin say həddi artırılıb.

Bu, Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" qərara etdiyi dəyişiklikdə əksini tapıb.

Qərara əsasən, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə ayrılan xidməti minik avtomobillərinin say həddi 3-dən 8-ə qaldırılıb. Əlavə 5 xidməti minik avtomobili Dövlət Xidmətinin regional idarələri üçün ayrılıb.

---



# Günay Əfəndiyeva "Çingiz Aytmatov medalı"na layiq görülüb

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Qırğızıstanın "Çingiz Aytmatov medalı" ilə təltif olunub.

Fonddan bildirilib ki, Günay Əfəndiyeva bu medala Çingiz Aytmatov irsinin, Qırğızıstanın və bütövlükdə, Türk dünyasının zəngin mədəniyyətinin beynəlxalq səviyyədə tanıdılması istiqamətində çoxşaxəli fəaliyyətinə görə layiq görülüb. Medal Qırğız Respublikasının Azərbaycandakı səfiri Kayrat Osmanaliyev tərəfindən təqdim olunub.

Məlumatda o da qeyd olunur ki, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən Azərbaycanda görkəmli yazıçı Çingiz Aytmatovun 90 illik yubileyinə həsr olunmuş tədbir təşkil edilib, ədibin "Cəmilə" povesti əsasında qırğız dilində hazırlanmış tamaşa nümayiş olunub.

Fondu bir neçə dəfə ziyarət edən Qırğızıstan səfiri Kayrat Osmanaliyev təşkilatın kitabxanasına ölkəsinin mədəniyyətini, tarixini və adət-ənənələrini əks etdirən nəşrlər, muzeyinə isə qədim qırğız musiqi aləti – komuz bağışlayıb.

---

# Moskvada Türkiyə-Ermənistan danışıqları

Yanvarın 14-də Moskvada Türkiyənin və Ermənistanın xüsusi nümayəndələrinin ilk görüşü keçiriləcək.



Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova yanvarın 13-də keçirdiyi brifinqdə Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşmasına tərəfdar olduqlarını deyib.

"Dialoq Türkiyə və Ermənistan arasındadır. Biz bu formata daxil deyilik. Türkiyə ilə Ermənistan arasında ikitərəfli münasibətlər, dialoqun qurulması, təmasların normallaşdırılması barədə prinsipial mövqeyimizi dəfələrlə ifadə etmişik, işdə və praktikada da kömək etmişik", – deyə M.Zaxarova vurğulayıb.

Rusiya XİN rəsmisi yanvarın 11-də Ermənistan-Azərbaycan sərhədində baş verən gərginlik barədə suala da cavab verib. Bildirib ki, uzunmüddətli planda regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasının əsas resepti Ermənistan-Azərbaycan sərhədinin delimitasiya və demarkasiya prosesinə başlanmasıdır: "Bu barədə üç ölkə liderinin 26 noyabr 2021-ci il tarixli birgə bəyanatında da qeyd olunub. İkitərəfli komissiyanın yaradılması üzrə işləri aparmaq vacibdir. Rusiya buna hərtərəfli və məsləhətli yardımını etməyə hazırdır".

# Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın yeni ildə ilk toplantısı

## Şuranın tərkibində dörd işçi qrupu yaradılıb

*əvvəli səh. 1-də*

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Günel Seyidəhmədlinin rəhbərlik edəcəyi üçüncü işçi qrupunun fəaliyyəti mədəni irsimizlə bağlıdır. Beynəlxalq əlaqələr üzrə nəzərdə tutulan qrup isə Əməkdar incəsənət xadimi, musiqişünas Cahangir Səlimxanovun rəhbərliyi altında fəaliyyət göstərəcək. Bu qrup mədəniyyətin müxtəlif sahələrində beynəlxalq əməkdaşlığı əhatə edəcək.

Sonra qrupların rəhbərləri iş planlarını təqdim etdilər. Azad Şükürov diqqətə çatdırdı ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və digər qabiliyyət tələb edən bədii təhsil ocaqları ilə danışıqlar aparılıb. Qrupun məqsədi regionlardakı istedadlı gəncləri üzə çıxararaq onların mədəniyyət və incəsənət sahəsində təhsillərinə yardımçı olmaqdır: "Çox zaman belə gənclər hara müraciət edəcəklərini bilmirlər. Bu səbəbdən də bölgələrdə görüşlər keçirilərək istedadlı gənclərə universitetlərə daxil olmaq üçün bütün məqamları izah etməyi düşünürük. Həmçinin yaxşı olardı ki, bölgələrdə yaşayan mədəniyyət xadimləri ilə də görüşlər keçirilsin. Bu, onların öz təcrübələrini bölüşməyə və bölgələrdə teatrların canlanmasına səbəb olardı. Biz istedadlı, qabiliyyətli gənclərə dəstək olmalıyıq ki, bütövlükdə mədəniyyətimiz inkişaf etsin".



Cahangir Səlimxanov mədəniyyət sahəsində beynəlxalq əməkdaşlıqda üzərində durulası məqamlardan söz açdı və fəaliyyət istiqamətləri haqqında fikirlərini bölüşdü. Günel Seyidəhmədli mədəni irsimizin qorunması istiqamətində araşdırmaların aparılmasının vacibliyini vurğuladı. Xalq artisti Vidadi Həsənov özəl teatrların nəzərdə tutulan festivalının teatr problemləri, görüşlər, ustad dərslərini əhatə edəcəyini bildirdi.

Toplantıda iştirak edən Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Fazil Mustafa mədəniyyət sahəsində bir sıra problemlərin olduğunu diqqətə çatdırdı. Qeyd etdi ki, İctimai Şuranın əsas fəaliyyəti bu problemlərin aradan qaldırılmasına təkan verməlidir. Mədəniyyət komitəsinin eksperti Əkbər Qoşalı isə işçi qrupunun təqdim etdiyi iş planı ilə bağlı fikir və təkliflərini bildirdi.

İctimai şuranın üzvlərindən Rauf Zeyni işçi qruplarının fəaliyyətinin təkmilləşdirilməsinin vacibliyini vurğuladı. Bəyimxanım Verdiyeva çıxışında şuranın televiziyalarla əməkdaşlığının vacibliyini, gənclərin maarifləndirilməsi, məktəblərdə teatr dərnəklərinin, mədəni inkişafa təkan verəcək layihələrin reallaşmasının əhəmiyyətini qeyd etdi.

Şura tərəfindən irəli sürülən təkliflərə münasibət bildirən Mədəniyyət Nazirliyi Sənəd və vətəndaşlarla iş şöbəsinin müdiri İsmayıl Əbdüləzimov qeyd etdi ki, hər hansı nəzarətin sonunda nəticə olmalıdır: "İctimai Şura ilə birgə əməkdaşlıq problemlərin həll yolunun tapılmasında kömək ola bilər. Vətəndaşlar fəaliyyətimizdən yararlanmalıdırlar. Bütün işimiz vətəndaş yönlü olmalıdır. Faydalılıq artdıqca problemlər də azalacaq. Biz İctimai Şuranın həll yönlü təkliflərini dinləməyə hazırıq. İnanıram ki, əməkdaşlıq nəticəsində problemlərin öhdəsindən gələ biləcəyik".

Daha sonra toplantı müzakirələrlə davam etdi.

Qeyd edək ki, Mədəniyyət Nazirliyi yanında İctimai Şura 2021-ci ilin iyulunda formalaşıb. Şura doqquz üzvdən ibarətdir.

**L.Azəri**

BELQRADDA TƏQDİMAT-TANITIM

# "Türk Dünyasının Mədəniyyət Paytaxtı" – Bursa

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un layihəsi üzrə 2022-ci ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilən Bursa şəhərinin Serbiyada təqdimat mərasimi keçirilib.




Serbiyanın paytaxtı Belqradda təşkil olunan tədbirdə TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Türkiyə mədəniyyət və turizm nazirinin müavini Əhməd Misbah Demircan, Bursa millət vəkili və Türkiyə-Serbiya Parlamentlərarası dostluq qrupunun rəhbəri Mustafa Esgin, Bursa Böyükşəhər Bələdiyyəsinin başqanı Alinur Aktaş, Serbiyanın mədəniyyət və informasiya nazirinin müavini Stanko Blaqojeviç və Belqrad meri Zoran Radojiçiç və başqa rəsmilər iştirak ediblər.

Təqdimat zamanı Bursanın ənənəvi xörəkləri, el sənətkarlığı nümunələri (çini işləri, ənənəvi üsulla hazırlanan məhrəbalar) və "Hacivat-Karagöz" kukla şousu böyük marağa səbəb olub.

Zoran Radojiçiç çıxışında "Türkiyənin Belqrad səfiri Hami Aksoy bu tədbirə hazırlıqları açıqlayanda Bursanın necə bir şəhər olduğunu bilmirdim. Bu gün buradakı videolardan, fotoşəkillərdən və təqdimatlardan anladım ki, Bursa dünyanın ən gözəl şəhərlərindən biridir" deyib. O, 2022-ci il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilən Bursanın ən yaxşı şəkildə təbliğ ediləcəyinə əmin olduğunu vurğulayıb.

Düsen Kaseinov bildirib ki, TÜRKSOY ortaq mədəniyyətimizi, tariximizi, incəsənətimizi, adət-ənənələrimizi tədqiq və inkişaf etdirərək gələcək nəsillərə ötürməklə bərabər, dost ölkələr və xalqlarla qarşılıqlı əlaqələrə də önəm verir: "Türk dünyasının mədəniyyət paytaxtları ilə Avropanın mədəniyyət paytaxtları arasında qarşılıqlı əlaqəni artırmaq üçün son beş ildə mühüm səylər göstərmişik. Ötən illərdə göstərdiyimiz səylər bu il öz müsbət nəticəsini verdi".

Baş katib bu xüsusda 2020-ci ilin "Türk Dünyasının Mədəniyyət Paytaxtı" Xivə (Özbəkistan) ilə "Avropanın Mədəniyyət Paytaxtı" Rijeka (Xorvatiya) arasında imzalanan əməkdaşlıq müqaviləsini mühüm uğur kimi qeyd edib: "Arzumuz bu il Avropanın Mədəniyyət Paytaxtı adını daşıyacaq Serbiyanın Novi Sad şəhəri ilə Türkiyənin Bursa şəhəri arasında əlaqələri inkişaf etdirmək və qardaşlıq protokolunu imzalamaqdır...".

Mədəniyyət və turizm nazirinin müavini Əhməd Misbah Demircan çıxışına XX əsrin tanınmış türk yazıçısı Əhməd Həmdi Tanpınarın sətirləri ilə başlayıb: "Sanki bir möcüzənin başlanğıcındayam. Su səsi və qanad çırpıntılarından bir kristal çilçıraq – Bursada zaman. Bursanın İstanbuldan sonra Türkiyə, Anadolu və Türküstan mədəniyyətini özündə əks etdirən ilk şəhərlərdən biri olduğunu bildirən nazir müavini qeyd edib ki, Bursa keçmişdə İpək Yolu və ticarət yollarının mərkəzində idi. Bu səbəbdən sənayesi və ticarəti də bir çox fərqli mədəniyyətlərə açıq olduğu üçün güclüdür. Bir sözlə, Bursa dünyanın mədəniyyət paytaxtı olmağa layiq şəhərdir...".

**Mehparə Sultanova**
**Ankara**

# "Şuşa İli" ilə bağlı görüləcək işlər müzakirə olunub

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Şuşa İli"ndə görəcəyi işlər, nəzərdə tutulan layihə və tədbirlər institutun Elmi şurasının yanvarın 12-də keçirilən yığıncağında müzakirə edilib.

İclası giriş sözü ilə açan institutun baş direktoru, akademik Teymur Kərimli bildirib ki, 2022-ci ilin "Şuşa İli" elan edilməsi Azərbaycan Respublikası Prezidentinin mədəniyyət siyasətinin uğurlu davamıdır.

Qeyd edib ki, Əlyazmalar İnstitutunda sərəncamdan irəli gələn elmi tədqiqat və nəşriyyat işlərinin, elmi-kütləvi və mədəni tədbirlərin planı hazırlanıb. Plana əsasən, bu il "Qarabağ şairləri antologiyası"nın I cildinin, "F.Köçərli arxivinin təsviri"nin, "Üzeyir Hacıbəylinin publisistikasında dövrün ictimai-siyasi məsələləri (1905-1920)" monoqrafiyasının, "Şuşanamə" poetik əsərlər toplusunun, Məhəmməd ağa Müctəhidzadənin Qarabağ şairləri haqqında "Riyazül-aşiqin" təzkirəsi və Qarabağın tarixi ilə bağlı "Səfərnamə"sinin nəşrinin, "Qarabağın ədəbi-mədəni mühiti əlyazmalarda" mövzusunda elektron və səyyar sərginin, eləcə də institut əməkdaşlarının mövzu ilə əlaqədar nəşrlərindən ibarət ənənəvi kitab sərgisinin təşkili nəzərdə tutulur.

# Rejissorlar üçün ustad dərsi

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi "Öyrədərək öyrənirəm" adlı layihəyə start verib. Layihə çərçivəsində Azərbaycan Dövlət Pantomim Teatrında Xalq artisti, Prezident təqaüdçüsü Bəxtiyar Xanızadənin ustad dərsləri başlayıb. 11 yanvarda ilk təlim gənc aktyorlar üçün təşkil edilmişdi.



Yanvarın 13-də keçirilən "Şekspirin Hamleti. Hamlet kimdir?" adlı növbəti ustad dərsində rejissorlar iştirak ediblər.

Ustad dərsi ilə bağlı təəssüratını bölüşən Bəxtiyar Xanızadə bildirdi ki, əvvəldən də qeyd etdiyimiz kimi, rejissorlar arasında yaş fərqi qoyulmadan bu sahədə çalışan hər kəs bu görüşə qatıla bildi: "Mövzuya gəlincə, elə başlanğıcdan auditoriyaya müraciət edərək bildirdim ki, mənim sizə dərs keçmək fikrim yoxdur. İncəsənət aləmində kifayət qədər yaşadıqlarımı və təcrübəmi sizinlə bölüşmək istəyirəm. Kimin xoşuna gələr, götürər, mənim etdiyim səhvləri etməz, kimin də xoşuna gəlməz, yenə də öz işi. Düzü, mən 1979-cu ildən "Hamlet" üzərində düşünürəm. Mütəmadi olaraq bir neçə dəfə nümayiş etdirmişik bu əsəri. Mən hər zaman bu düşüncə ilə yaşadım ki, görəsən, mən Şekspiri necə anladım, öz daxili təcrübəmdən necə keçirə bildim, quruluşda ortaya atdığım səbəbləri izah edə bildimmi və s. Fikirlərimi bölüşməyim rejissorlar tərəfindən maraqla qarşılandı. Bir də baxdım ki, mənim özümə danışmağa imkan vermirlər və artıq birbaşa mənimlə dialoqa keçiblər. Ustad dərsi maraqlı fikir mübadiləsi ilə davam etdi...".

Qeyd edək ki, yanvarın 14-də "Teatr və mən – mən və teatr" mövzulu üçüncü ustad dərsi teatrşünaslar üçün nəzərdə tutulur.

**Lalə**

# "Artım" layihə məkanında yeni tamaşa

## "Cəhənnəmə gedən özünə yoldaş axtarar"

Yanvarın 16-da "Artım" layihə məkanında İsmayıl İmanın "Cəhənnəmə gedən özünə yoldaş axtarar" pyesi əsasında səhnələşdirilən eyniadlı tamaşa nümayiş ediləcək.

Rejissor Tərlan Rəsulovun səhnələşdirdiyi tamaşa müasir insanların bir-biri ilə ünsiyyət və münasibət qura bilməməsindən bəhs edir.

Səhnə əsərinin videoyazısı eyni vaxtda "Artım"ın üç zalında Azərbaycan, rus, ingilis dillərində təqdim olunacaq.

Saat 17:00 və 19:00-da nümayiş olunacaq tamaşaya baxmaq üçün öncədən qeydiyyatdan keçmək vacibdir.

# "Ön söz – on söz"

## Daş Salnamə Muzeyində sərgi davam edir

YARAT Müasir İncəsənət Məkanının 10 illiyi münasibətilə Daş Salnamə Muzeyində açılan "Ön söz – On söz" xronikal qrup sərgisi davam edir.

Sərgi YARAT-ın ilk layihəsinə ("Ön söz") istinadla bu dövr ərzində keçdiyi yolu və yeni nəsil müasir rəssamların yetişdirilməsi və formalaşdırılmasında oynadığı müstəsna rolunu vurğulayır.

Yaddaş və tarix anlayışları ətrafında toplanmış ekspozisiya keçmişin indiki anımıza qədər sirayət etməsinin etirafıdır. Keçmişin maddi reallığı ilə qarşılaşan indiki reallıq bir sürətə bağlıdır. Sərgi yaşadığımız sürətin bizi əhatə edən keçmişin simvolları və xatirələri ilə necə uzlaşdığını nəql edir, ənənə və cəmiyyət, dəyərlər sistemi, ziddiyyətli həqiqətlər mövzularına toxunur. İnsan varlığı və mövcudluğunun fərqli aspektləri araşdırılaraq onların formalaşmasında keçmişin əhəmiyyətini və rolunu ön plana çəkir.



YARAT kolleksiyasının ən mühüm əsərlərindən ibarət ekspozisiyada Afruz Amighi, Faiq Əhməd, Rəşad Ələkbərov, Çinarə Məcidova və Elturan Məmmədovun instalyasiya, heykəl, video və fotoəsərləri yer alıb.

Yanvarın 31-dək davam edəcək sərgi ilə həftənin 6 günü (çərşənbə axşamı – bazar günü) tanış olmaq mümkündür. Sərginin kuratoru Fərəh Ələkbərlidir.

MEDİA-nın İCRAÇI DİREKTORU YAZIR

# Media islahatları: yeni hədəflərə doğru

Media sahəsində həyata keçirilən islahatlar mahiyyət etibarilə özündə media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsasları, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı, yayımı və s. məsələlərin daha təkmil formada həll edilməsinə yönəlmiş tədbirləri ehtiva edir. Bu mənada yeni qanunun qəbul edilməsi son dərəcə aktualdır və əminliklə demək olar ki, zərurətə çevrilib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov bu fikirləri "Media islahatları: yeni hədəflərə doğru" sərlövhəli məqaləsində qeyd edir.

Məqalədə bildirilir ki, "Media haqqında" yeni qanun peşəkar media subyektləri və jurnalistlər üçün geniş imkanlar və potensial güzəşt və imtiyazlar üçün hüquqi əsas yaradacaq, ölkə mediasının daha yüksək inkişaf mərhələsinə keçidinə dəstək olacaq: "Lakin unudulmamalıdır ki, media bir prosesdir və həmin prosesdə media subyektləri və jurnalistlər iştirakçıların yalnız bir qrupu – xəbərin, media məhsulunun istehsalçısıdırlar. Onlarla yanaşı həmin prosesdə bu media məhsullarının istehlakçıları – auditoriya, yəni qəzet və sayt oxucuları, televiziya tamaşaçıları, radio dinləyiciləri və s. də iştirak edir".

MEDİA-nın icraçı direktoru diqqətə çatdırır ki, yeni qanun layihəsi hazırlanarkən Azərbaycan Respublikasının Konstitusiyası, qanunvericilik bazası, beynəlxalq qanunvericilik və müxtəlif digər sənədlər, o cümlədən Avropa Şurasının jurnalistika etikası ilə bağlı qətnaməsinin müddəalarına uyğun olaraq, bütün tərəflərin, o cümlədən media məhsulu istehlakçısının da maraqları nəzərə alınıb.

"Medianın inkişafının ilkin şərtlərindən biri jurnalistlərin peşəkarlığının artırılması, onların problemləri və ehtiyacları ilə bağlı tədbirlərin görülməsidir. Agentlik bu istiqamətdə istər müstəqil şəkildə, istərsə də yerli və xarici tərəfdaşlarla birgə müntəzəm olaraq müxtəlif təlimlər, treninqlər və digər tədbirlər həyata keçirməkdədir. Agentlik tərəfindən media subyektlərinin rəhbərləri üçün menecment və idarəetməyə dair xüsusi seminarlar, region mediasının inkişafı ilə bağlı müxtəlif bölgələri təmsil edən media subyektlərinin nümayəndələri ilə videokonfrans formatında görüş təşkil edilmişdir", – deyə Əhməd İsmayılov yazır.

Məqalədə vurğulanır ki, hər bir sahədə olduğu kimi, media sahəsində də peşəkarlığın əsas göstəricilərindən biri peşə etikası faktorudur. Mediada peşə etikasına riayət edilməsi, müəllif hüquqları, məlumatların dəqiqliyi və qərəzsiz, obyektiv yanaşmanın təmin edilməsi, əxlaq normalarının gözlənilməsi və s. məsələlər peşəkar medianın inkişaf etdirilməsi kontekstində daim diqqətimizdə saxlanılır və bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilir: "Agentlik tərəfindən təşkil edilən və müxtəlif kateqoriyalara istiqamətlənmiş bütün bu tədbirlərin əsas məqsədlərindən biri informasiya və xəbər mühitini sağlamlaşdırmaq, bu sahədə peşəkarlıq səviyyəsini yüksəltmək, jurnalistika peşəsinin cəmiyyətdə nüfuzunu qaldırmaq, onu yüksək keyfiyyət standartlarına uyğunlaşdırmaqla məsuliyyətsiz və qeyri-peşəkar təzahürlərdən azad etməkdən ibarətdir".

Qeyd edilir ki, agentlik tərəfindən jurnalistlərin rifahının yüksəldilməsi və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində müxtəlif layihələr işlənib hazırlanır. Media reyestrinin tətbiqi ilə bu istiqamətdə aidiyyəti dövlət qurumları ilə birgə konkret layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

Agentlik fəaliyyətinin əsas hədəflərindən biri kimi media subyektlərinin iqtisadi müstəqilliyinin təmin edilməsi məsələsini daim diqqətdə saxlayır, bu məqsədlə müvafiq təhlillər aparır, müxtəlif qurumlarla əməkdaşlıq edir. Media subyektlərinin iqtisadi müstəqilliyi ümumilikdə medianın müstəqilliyinin əsas təminatçısıdır və bu mənada media subyektləri müstəqil sahibkarlıq (biznes) subyekti kimi rəqabətqabiliyyətli olmağı bacarmalıdırlar.

MEDİA

Agentlik media subyektlərinin inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, habelə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsi məqsədilə müntəzəm müsabiqələr təşkil edir.

Məqalədə Medianın İnkişafı Agentliyinin beynəlxalq əməkdaşlıq layihələrində iştirakından da bəhs olunur. Buna misal olaraq Türk Dövlətləri Təşkilatı, Türkiyə-Azərbaycan ortaq media platforması layihələri xüsusi qeyd edilir.

№3 (1876)
14 yanvar 2022
www.medeniyyet.az

# Bölgələrdən müxtəlif səpkili xəbərlər




Gəncə Regional Mədəniyyət İdarəsi (RMİ) Gəncə şəhər MKS-nin Mərkəzi Kitabxanasında fonda daxil olan yeni kitabların sərgisi keçirilib. Sərgidə Azərbaycan, rus və ingilis dillərində 400 nüsxədən çox kitab nümayiş olunub.

MKS-nin 15 saylı kitabxana filialının təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin liderlərindən Xudadat bəy Rəfibəylinin (1877-1920) anadan olmasının 145 illiyi ilə bağlı tədbir keçirilib. Gəncə şəhər M.Ş.Vazeh adına 16 saylı tam orta məktəbdə keçirilən tədbirdə tarix müəllimi Tükəzban Əsgərova, kitabxana müdiri Aynur Rzayeva və məktəbin 9-cu sinif şagirdləri mövzu ilə bağlı çıxış ediblər. Bildirilib ki, X.Rəfibəyli Cümhuriyyətin səhiyyə naziri işləyib, Yelizavetpol (Gəncə) quberniyasının qubernatoru olub.

Gəncə şəhər Mədəniyyət Mərkəzində şəhidlərin xatirəsinə həsr olunan "Vətən mənim bu günüm..." adlı tədbir təşkil olunub. Çıxış edənlər Vətəni qorumağın hər bir ölkə vətəndaşının ümdə borcu olduğu diqqətə çatdırılıb.

İsmayıllı RMİ Qobustan rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "Müasir dövrümüzdə bəşəriyyətin bəlası olan narkomaniya və dini radikalizm ilə mübarizə" mövzusunda tədbir keçirilib. Çıxışlarda son illər narkotik vasitələrə qarşı mübarizənin xeyli gücləndiyi, dövlət orqanlarının bu sahədəki fəallığının artması qeyd olunub. Sosial bəlaya qarşı aparılan mübarizə məqsədilə maarifləndirici tədbirlərin mütəmadi keçirilməsinin zəruriliyi vurğulanıb.

Ağstafa RMİ Qazax rayon MKS-nin E.Hüseynov adına Mərkəzi Kitabxanası şəhər istirahət parkında "Prezidentin hədiyyəsi" başlıqlı səyyar sərgi təşkil edib. Sərgi Prezident İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamının təbliği məqsədilə təşkil edilib. Sərgidə "Oxu, öyrən tarixini", "Gənclər tarixi olduğu kimi bilməlidirlər" – İlham Əliyev", "Tariximiz, şərəfimiz" bölmələrində müxtəlif mövzularda 80-dən çox kitab nümayiş olunub.



Ağdaş RMİ Ucar Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Bu günün şagirdi, gələcəyin əsgəri" adlı tədbir keçirilib. Tədbirdə Birinci Qarabağ müharibəsi iştirakçısı Əvəz Süleymanov çıxış edərək döyüş yolundan söhbət açıb, eləcə də Azərbaycan əsgər və zabitlərinin 44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqdan danışıb.

Göyçay rayon MKS-də "Nazim Hikmət dünyası" adlı tədbir təşkil olunub. Görkəmli türk şairi Nazim Hikmətin (1902-1963) anadan olmasının 120 illiyi münasibətilə gerçəkləşən tədbirdə çıxış edənlər qələm sahibinin insan dünyasının zənginliyini, duyğu aləminin incəliklərini, həyatın mürəkkəbliyini bütün dolğunluğu ilə əks etdirən türk şeiri tarixində əbədiyaşar korifey sənətkar olduğunu qeyd ediblər. Sonra şairin əsərlərindən ibarət sərgiyə baxış olub.

Xaçmaz RMİ Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyi "Vətən üçün oxu" adlı maarifləndirici layihə həyata keçirir. Layihə çərçivəsində şəhid və qazi övladları, eyni zamanda imkansız ailələrin uşaqları məktəb ləvazimatları, kitablarla təmin edilir, təhsillə bağlı söhbətlər aparılır. Vətən müharibəsi şəhidi Nazir Xurşudovun ailəsi ilə görüş keçirilib, ailəyə məktəb ləvazimatları və müxtəlif mövzulu kitablar hədiyyə edilib.

Siyəzən şəhərində Vətən müharibəsində şanlı Qələbəmizin şərəfinə "Dəmir yumruq" abidəsi ucaldılır. Şəhərin Molla Pənah Vaqif küçəsində yerləşəcək abidənin əsas elementlərini Azərbaycan xəritəsi və "Dəmir yumruq" simvolları təşkil edir. Eyni zamanda abidə "Biz birlikdə güclüyük!" mesajını verəcək. Xəritə üzərində Qız qalası, Xudafərin körpüsü, İmamzadə kompleksi və s. əks olunacaq.

Sumqayıt RMİ-də yeni ilin ilk müşavirəsi keçirilib. İdarə rəisi Rəşad Əliyev Prezident İlham Əliyevin 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında sərəncamının əhəmiyyətindən danışıb. O, həmçinin "Şuşa İli" çərçivəsində təşkil olunacaq tədbirlərin rəngarəng və genişmiqyaslı olmasının vacibliyini vurğulayaraq, müəssisə rəhbərlərinə müvafiq tapşırıqlar verib. İdarə rəisi Mədəniyyət Nazirliyinin müasir idarəetmə üsullarının tətbiqi, şəffaflıq və səmərəliliyin artırılması və ən əsası, insan kapitalının müasir tələblərə uyğunlaşdırılması və inkişaf etdirilməsi ilə, habelə strateji prioritetlər haqqında ətraflı bəhs edib. Vurğulanıb ki, cari ildən hər bir müəssisənin iş effektivliyi KPİ indikatoru (Əsas Effektivlik Göstəriciləri – Key Performance İndicator) üzrə dəyərləndiriləcək.



Qubadlı rayon Fəxrəddin Hüseynov adına Mahmudlu kənd Uşaq musiqi məktəbinin 6-cı sinif şagirdi Aylin Əsədli Azərbaycan Gənclər İttifaqının dəstəyi ilə keçirilən "Ümid-2021" beynəlxalq incəsənət və rəqs müsabiqəsində 11-12 yaş kateqoriyasında fortepiano üzrə 3-cü yerə layiq görülüb. Yeniyetmə pianoçunun uğurunda bədii rəhbər, konsertmeyster Ülviyyə Məlikovanın da xüsusi xidmətləri var.

Şəki RMİ Qax rayon İbaxlı kənd kitabxanası və Diyarşünaslıq klubunun birgə təşkilatçılığı ilə "Şuşa İli" ilə bağlı "Xarıbülbül ətri gəlir" adlı ədəbi-bədii gecə keçirilib. Tədbirdə iştirak edən məktəblilər, kitabxananın fəal oxucuları Şuşaya həsr olunmuş şeir və mahnılar səsləndiriblər.




Lənkəran RMİ Lerik rayon Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Lerik nümayəndəliyi, "Müasir Gənclərin İnkişafına Dəstək" İctimai Birliyi və "Azərbaycan qadını elmdə" təşkilatının birgə tərəfdaşlığı ilə 13-18 yaşlı məktəbli qızlar üçün nəzərdə tutulmuş regional seminarlar keçirilib. Seminarlar Avropa İttifaqının maliyyələşdirdiyi, BMT-nin Əhali Fondu (UNFPA Azerbaijan) və BMT-nin Qadınlar üzrə Agentliyinin (UN Women) birgə həyata keçirdiyi "Avropa İttifaqı gender bərabərliyi naminə: gender stereotiplərinə və gender əsaslı zorakılığa qarşı" proqramı çərçivəsində təşkil edilib.

Masallı RMİ Yardımlı rayon Heydər Əliyev Mərkəzində qanlı 20 Yanvar faciəsinin 32-ci ildönümü münasibətilə "Azərbaycan xalqı üçün unudulmaz tarix" adlı tədbir gerçəkləşib. Tədbirdə "Qanlı Yanvar" filmi nümayiş olunub və xalqımızın qan yaddaşını özündə əks etdirən "Biz müharibə istəmirik" adlı sərgiyə baxış keçirilib.

Astaralı məktəblilər Azərbaycan Respublikası insan hüquqları üzrə müvəkkilinin (Ombudsman) təşəbbüsü ilə keçirilən "Postmüharibə dövründə insan hüquqları" mövzusunda uşaq rəsm müsabiqəsində uğur qazanıblar. Astara Dövlət Rəsm Qalereyasının rəsm dərnəyinin üzvləri olan müsabiqə iştirakçılarına təşəkkürnamələr təqdim olunub.

Masallı rayonunun Ərkivan qəsəbəsində Vətən müharibəsi şəhidi Sənan Seyfullayevin adına inşa edilmiş bulaq-abidə kompleksinin açılış mərasimi keçirilib. Mərasimdə çıxış edənlər şəhidin döyüş yolundan, Vətən sevgisindən söhbət açıblar. Sonda məktəblilər Vətənə, şəhidlərimizə həsr olunan şeirlər söyləyiblər.




**Hazırladı: N.Məmmədli**

## "Şuşa İli" münasibətilə rəsm müsabiqəsi

İsmayıllı RMİ Qəbələ Dövlət Rəsm Qalereyası və Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun birgə təşkilatçılığı ilə rayon Mədəniyyət Mərkəzində uşaq, yeniyetmə və gənclər arasında "Şuşa, sən azadsan!" mövzusunda rəsm müsabiqəsi keçirilib.




"Şuşa İli" münasibətilə təşkil olunan müsabiqədə rayonun Zarağan kəndində yerləşən Şuşa rayon 24 nömrəli ümumi orta məktəbin şagirdlərinin mədəniyyət paytaxtımızın tarixi və erməni işğalından azad edilməsi ilə bağlı rəsm əsərləri nümayiş olunub.

Tədbirin açılışında qalereyanın direktoru Təzəgül Nəsmiyeva, Qəbələ qoruğunun direktoru Zahir Kərimov, Şuşa rayon 24 saylı ümumi orta məktəbin direktoru Səbinə Gözəlova, Şuşa sakini Məhər Quluzadə və Mədəniyyət Mərkəzinin direktoru Malik Ağayev çıxış ediblər. Dövlət başçısı tərəfindən 2022-ci ilin "Şuşa İli" elan edilməsinin əhəmiyyəti vurğulanıb.

Məktəbin şagirdləri tərəfindən hazırlanan ədəbi-bədii kompozisiya nümayiş olunub. Sonra müsabiqənin qaliblərinə diplom və hədiyyələr təqdim edilib.

## "Vətənim Azərbaycan"

### Regional idarənin yeni layihəsi

Bərdə RMİ Tərtər rayon Heydər Əliyev Mərkəzi "Vətənim Azərbaycan" adlı layihəyə başlayıb. Layihənin məqsədi ölkəmizi ayrı-ayrı bölgələri ilə birlikdə daha yaxından tanımaq və tanıtmaqdır.



Layihə çərçivəsində keçirilən ilk tədbirdə mədəniyyət və təhsil işçiləri iştirak edib. Mərkəzin direktoru Səlimə Yusibova çıxış edərək Azərbaycanın tarixi keçmişi barədə danışıb. Mərkəzin əməkdaşı Fəridə Süleymanovanın "Vətənim Azərbaycan" mövzusunda məruzəsi dinlənilib.

Daha sonra Nəcmiyyə Zeynalzadə Süleyman Rüstəmin "Azərbaycana gəlsin", Jalə Əlizadə isə Məhəmmədhüseyn Şəhriyarın "Azərbaycan" şeirlərini söyləyiblər.

Layihə çərçivəsində ayda iki dəfə tədbirlərin təşkil olunması nəzərdə tutulub. Hər tədbir Azərbaycanın bir bölgəsinə həsr olunacaq.

BİR QALANIN SİRRİ

## Xızı dağlarında "gizlənən" qala-şəhər

Gözəlliyi mahnılarda vəsf olunan Xızı dağları, eyni zamanda, qədim tariximizin izlərini özündə qoruyub saxlayır. Bu reportajımızda Xızı dağlarının sıx meşəlik ərazisində gizlənən qala-şəhər haqqında məlumat verəcəyik.





V-VII əsrlərə aid olduğu ehtimal olunan qala-şəhər Xızının Altıağac qəsəbəsindən 3 kilometr şərqdə yerləşir. Altıağac Milli Parkı ərazisində yerləşən qədim qala haqqında mətbuatda məlumata rast gəlinmir.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Şabran Regional İdarəsinin Xızı bölgəsi üzrə baş mütəxəssisi Tural Babayev və Altıağac Milli Parkının mühafizə yegeri Elvin Ələkbərovun bələdçiliyi ilə AZƏRTAC-ın bölgə müxbiri qalaya qalxıb.

Dəniz səviyyəsindən təxminən 1200 metr yüksəklikdəki qala-şəhərin qalıqları olan əraziyə çatmaq üçün 2-3 saat piyada yol qət etmək lazımdır. Qalaya gedən yol parkın 9 nömrəli turizm marşrutu üzərində yerləşir. Çətin keçilən meşə cığırları ilə iki kilometrdən çox yol qət etdikdən sonra qala divarlarının ilk qalıqlarına rast gəlinir.

Tural Babayev bildirir ki, tarixi abidə qala divarları və qalıqlarından ibarətdir. Qala çay və qayadan qoparılan daşlarla əhəng məhlulu ilə tikilib. Yerli sakinlər arasında Qız qalası və Şamil qalası kimi adlandırılır.

"Burada salamat qalan qala bürcləri üç formada – dairəvi, yarımdairəvi və aypara şəklindədir. Qala-şəhər cənub və qərbdən sıldırım qayalarla şimal və şərqdən isə müdafiə divarları və bürclərlə əhatə olunub. Müqayisəli şəkildə qeyd edilsə, bu qala-şəhər İçərişəhərin yarısı böyüklükdədir. Qala müdafiə xarakterlidir. Bu məlumatlar ilkin ehtimallarımızdır. Təsdiqlənmiş məlumatlar üçün ərazinin arxeoloqlar, tarixçilər və digər aidiyyəti üzrə mütəxəssislər tərəfindən araşdırılması lazımdır", - deyə Tural Babayev söyləyir.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Şabran Regional İdarəsinin mütəxəssisləri qala-şəhərə ilk dəfə 2021-ci ilin noyabr ayında baxış keçirib. Müəyyən olunub ki, qalanın günümüzədək gəlib çıxan iki böyük hissəsi mövcuddur. Şimal istiqamətdə qala divarları 6 hektar ərazini əhatə edir. Qalanın giriş qapılarının da bu istiqamətdə olduğu ehtimal edilir. Zirvəyə doğru 500 metr məsafə qət etdikdən sonra qala divarlarının salamat qalan daha bir hissəsinə rast gəlinir.

Tural Babayevin qeyd edir ki, qala şimaldan gələn yadelli işğalçılardan qorunmaq və ətraf yolları nəzarətdə saxlamaq üçün nəzərdə tutulub: "Burada müxtəlif tikililər mövcuddur. Qalanın mərkəzində, torpaq təbəqəsinin altında saxlanc və ya digər məqsədlər üçün nəzərdə tutulan otaqlara rast gəlinir. Tikintidə istifadə olunan qaya daşları elə yaxınlıqdakı ərazidən daşınıb. Ətraf qayalara baxanda bunun izlərini görmək olur. Bişmiş kərpicdən və əhəng məhlulundan da istifadə olunub. Yonulmuş daşların nömrələndiyini müşahidə edirik".

Mühafizə yegeri Elvin Ələkbərovun sözlərinə görə, qalanın qalıqlarının yerləşdiyi relyef mürəkkəb, meşə cığırları ilə hərəkət çətin olsa da, Altıağac Milli Parkına gələn turistlər tarixi məkana səyahət edirlər. Əraziyə aparan turizm marşrutu üzrə bələdçilərin müşayiəti ilə hərəkət etmək tövsiyə olunur.

Vaxtilə Şamaxını Dərbəndlə birləşdirən qədim karvan yolu buradan keçib. Altıağac yolçuların və dəvə karvanlarının düşərgə salıb dincəldikləri yer kimi göstərilir.

KEÇƏN İLİN STATİSTİKASI

## Qəbələyə gələn turist sayı artıb

2021-ci ildə Qəbələ rayonundakı hotel və mehmanxana tipli müəssisələrə 83 min 534 nəfər yerli və əcnəbi turist yerləşdirilib. Onların 70 min 623 nəfəri və ya 84,5 faizi Azərbaycan, 12 min 911 nəfəri və ya 15,5 faizi xarici ölkə vətəndaşı olub. Bu barədə Qəbələ Rayon Statistika İdarəsindən məlumat verilib.

Bildirilib ki, ötən il Qəbələ rayonunda yerli və əcnəbi turistlərin sayı 2020-ci illə müqayisədə 25 min 418 nəfər və ya 43,7 faiz artıb. O cümlədən əcnəbi turistlərin sayında 3 min 575 nəfər və ya 38,3 faiz artım qeydə alınıb.

İdarədən verilən məlumata əsasən, 2021-ci ildə Qəbələyə gələn əcnəbi turistlər arasında Səudiyyə Ərəbistanının vətəndaşları yenə üstünlük təşkil edib. Ötən il Qəbələyə Səudiyyə Ərəbistanından 1720, Hindistandan 963, Türkiyədən 710, Rusiyadan 674, Qətərdən 467, İsraildən 427, Pakistandan 324, Böyük Britaniyadan 177, ABŞ-dan 167, Bəhreyndən 167, İrandan isə 166 turist gəlib. Rayona gələn əcnəbilərin 2652 nəfəri isə digər ölkələrin vətəndaşları olub.




Keçən il rayon ərazisində 15 mehmanxana və mehmanxana tipli müəssisə fəaliyyət göstərib. Bu obyektlərin birdəfəlik tutumu 1015 yerdir. Turistlərin qalma müddəti 1-2 gün olub.

əvvəli səh. 1-də

KİNO SALNAMƏSİNİN FOTO YADDAŞINI YARADANLAR

# Fotoqraf-rəssam Pərviz Quliyevin 80 illiyi qeyd olundu

Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev çıxışında Pərviz Quliyevin kinoda xidmətlərindən söz açdı. Diqqətə çatdırdı ki, Azərbaycan kino salnaməsinin foto yaddaşının toplanmasında, qorunub saxlanmasında onun böyük zəhməti olub: "Öz arxivini bir neçə il əvvəl Dövlət Film Fonduna hədiyyə edən Pərviz Quliyevin çəkdiyi fotoşəkillər geniş bir dövrü əhatə edir, onların arasında çox nadir fotolar da var. Onun fotolarında insanların taleləri, böyük zəhmət, kino xadimlərimizin yaradıcılıq axtarışları, filmlərimizin yaranma tarixi əks olunub. Pərviz Quliyevin yaradıcılığı kinomuzun bu günü ilə keçmişi arasında bir körpüdür".

Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi, Əməkdar incəsənət xadimi, kinooperator Rafiq Qəmbərov, Azərbaycan Fotoqraflar Birliyinin sədri Mirnaib Həsənoğlu, bəstəkar, Xalq artisti Faiq Sücəddinov çıxış edərək yubilyara təbriklərini çatdırdılar.

Gecədə Azərbaycan kino musiqilərindən nümunələr səsləndirildi. Xalq artistləri Murad Hüseynov, Ənvər Sadıqov, Siyavuş Kərimi, Elçin Həşimov, Əməkdar artistlər Ramil Qasımov, Elnur Əhmədov, İnarə





Babayeva və "Avanqard" orkestrinin ifasında kino tariximizə musiqili səyahət tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

Tədbirin sonunda yubilyar çıxış edərək təşkilatçılara və qonaqlara təşəkkürünü bildirdi.

Pərviz Quliyev ömrünün düz 55 ilini Azərbaycan kinosuna həsr edib. Uşaqlıqdan onda fotoqrafiyaya böyük sevgi yaranıb. Atası onun üçün kiçik "Smena" fotoaparatı alıb. Pərviz Quliyev ilk dəfə məhz onunla çəkməyə başlayıb və elə ilk fotolaboratoriyasını da evinin zirzəmisində qurub.

Yubilyar urnalistlərə müsahibəsində tədbirin onun üçün gözlənilməz bir hadisə olduğunu qeyd etdi. Sənət dostları, görkəmli kino xadimlərinin pandemiyadan sonra bir arada toplanmasından məmnunluğunu bildirdi: "Mən kinonu çox sevirdim. Hələ uşaq yaşlarımdan arzum çəkiliş meydançasında olmaq idi. Bu arzumun reallaşmasında mənə qonşumuz, Azərbaycan kino-



sunda uzun illər fəaliyyət göstərmiş rəssam Nadir Zeynalov yardımçı oldu. 12 yaşım olanda ondan xahiş etdim ki, məni özü ilə "Azərbaycanfilm" Kinostudiyasına aparsın. O, mənə icazə vərəqəsi verdi və filmlərin çəkilişlərinə getməyə başladım. Bu gün kinomuzun əfsanəsi sayılan filmlərin çəkilişini müşahidə etmişəm. İlk filmim "Arşın mal alan" oldu. Oradan da unudulmaz aktyorumuz Həsən Məmmədovla tanışlığım oldu və biz onunla ömrünün sonunadək ən yaxın dostlar idik. Ceyhun Mirzəyevin "Ögey ana"da çəkilişlərinin şahidi olmuşam. Onunla sonuncu filmi olan "Fəryad"da işləmək mənə nəsib oldu. Demək olar ki, kinomuzun bütün görkəmli xadimləri ilə birlikdə çalışmışam. Rejissorlar Əjdər İbrahimov, Hüseyn Seyidzadə, Əlisəttar Atakişiyev, Şamil Mahmudbəyov, Tofiq Tağızadə, Arif Babayev, Eldar Quliyev, Rasim Ocaqov, Rasim İsmayılov və başqa rejissorlarla işləmək hədsiz xoş idi. Bütün rejissorlarla çox yaxşı münasibətim olub. Amma Arif Babayevlə daha yaxın dostluğumuz var idi. Eyni binada yaşayırdıq. Arif Babayev çox maraqlı və istedadlı insan idi və mən onunla demək olar ki, bütün filmlərində işləmişəm. Azərbaycan kinosunun "qızıl fond"una daxil edilmiş 50-dən çox filmin çəkilişlərində iştirak etmişəm...".

Beləliklə, soyuq yanvar gecəsində Azərbaycan kinosunun veteranlarının bir araya toplandığı maraqlı tədbirdə kino tariximizin səhifələri bir daha vərəqləndi. Səmimi, ötən günlərin xoş xatirələri və kinoya sevgi dolu bir gün pozitiv notlarla tamamlandı...

**L.Azəri**

PANDEMİYA MÖVZUSU TEATRDA

# İnsan həm də yaşatmaq üçün yaşamalıdır...

2020-ci ildə COVİD-19 pandemiyasına qarşı mübarizə tədbirlərinə dəstək məqsədilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının təşəbbüsü ilə "Biz birlikdə güclüyük" adlı birpərdəli pyes müsabiqəsi keçirilmişdi. Gənc yazıçı Pərviz Seyidlinin "Mələk" pyesi müsabiqənin qalibi olmuşdu.

Müsabiqənin şərtlərinə əsasən, pyes həm nəşr olunub, həm də Gənc Tamaşaçılar Teatrı tərəfindən səhnələşdirilib. Tamaşanın premyerası ötən il dekabrın 20-də Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında gerçəkləşib. Səhnə işi növbəti dəfə yanvarın 8-də Teatr Xadimləri İttifaqının səhnəsində oynanılıb.

Rejissoru Ayla Osmanova olan tamaşanın quruluşçu rəssamı Sevinc Həsənovadır. Səslənən mahnıların musiqisi və mətni Tofiq Hacıyevə, aranjimanı isə Şamxal Novruzluya aiddir. Rolları Ramil Məmmədov və Aygün Fətullayeva oynayır.

Əsər pandemiyanın bəşəriyyəti sürüklədiyi bəladan, ailələri düçar etdiyi faciədən bəhs edir. Anasını itirmiş gənc gözəl Lalə sarsıntıdan, tənhalıqdan, ən əsası isə onu anbaan izləyən günah hissindən tükənib. Gözlənilməz bəla bütün bəşəriyyəti sarsıdıb. Amma bütün hallarda sənət insanları çıxılmaz labirintlərdən xilas etmək üçündür. Bütün sualların cavabı elə tamaşaçının gözü önündə tapılır. Lalə səhlənkar və koronavirusun yaratdığı fəsadlara inanmayan





gənc xanımdır. Onun biganəliyindən anası bu xəstəliyə yoluxur və vəfat edir. Anasının ölümündən vicdan əzabı çəkən Lalə həyatına son qoymaq istəyir. Düşünür ki, artıq həyat bitib. Vicdan əzabı ilə yaşamaq istəməyən Lalə canına qəsd etmək fikrinə düşür. Ancaq Fərhad onu xilas edir. Fərhad ona başa salır ki, insan yalnız özü üçün yaşamır, o həm də yaşatmaq üçün yaşamalıdır...

Müxtəlif yaş kateqoriyalı teatrsevərlər üçün maraqlı layihələr irəli sürən Gənc Tamaşaçılar Teatrı eşitmə və danışma məhdudiyyətli sənətsevərləri də nəzərə alıb. "Səssiz Ünsiyyət" Jest Dilinin İnkişafına Dəstək Təşkilatının jest dili təlimçisi və tərcüməçisi, sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 nömrəli xüsusi internat məktəbinin müəllimi Könül Quliyeva tamaşanı səhnədəcə jest dilinə tərcümə edib. Teatrın mətbuat xidmətindən bildirilib ki, bundan sonrakı layihə və tamaşalarda bu təcrübədən istifadə olunacaq. Çağdaş zamanda sənət hər kəs üçün əlçatan olmalıdır.

**Lalə**

# "Ölülər" yenidən səhnədə

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Cəlil Məmmədquluzadənin "Ölülər" pyesi əsasında hazırlanmış ikihissəli tamaşa yanvarın 16-da növbəti dəfə nümayiş olunacaq.



Xalq artisti Azər Paşa Nemətovun 2016-cı ildə quruluş verdiyi səhnə əsərinin elmi məsləhətçisi akademik İsa Həbibbəyli, rejissorları Anar Sadıqov və Əlif Cahangirlidir. Tamaşada böyük bəstəkar Qara Qarayevin 1966-cı ildə Tofiq Kazımovun quruluşunda "Ölülər" əsəri üçün yazdığı musiqi yeni versiyada təqdim olunur. Xalq artisti Rauf Abdullayevin idarəsi ilə Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında lentə alınmış musiqini simfonik orkestr üçün mərhum bəstəkar, Əməkdar incəsənət xadimi Rauf Əliyev işləyib.

"Ölülər"in Şeyx Nəsrullahı Xalq artisti Nurəddin Mehdixanlı, Kefli İsgəndəri isə Əməkdar artist Anar Heybətov olacaq.

Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyası ilk dəfə 1916-cı ildə Hüseyn Ərəblinski tərəfindən səhnələşdirilib.

KÖHNƏ REPERTUARDAN

# Pantomimçilər "Yeraltı"nı təqdim edəcək



Azərbaycan Dövlət Pantomima Teatrı köhnə repertuarından "Underground" tamaşasını həftəsonu (15-16 yanvar) təqdim edəcək.

Tamaşanın adı ingiliscədən tərcümədə "yeraltı" mənasını versə də, ideyası ümumilikdə dünyanın laqeydlik girdabından xilası haqqındadır. Texniki tərəqqinin insan xarakterinə təsiri, onun həyat çərçivələrindən qurtulmaq, xəyalında öz xilas günəşini tapıb ona doğru yüksəlmək istəyi...

Bəşər övladını ayıltmaq və dünyanı xilas etmək çağırışı – telefon zəngi gəlsə də, heç kim ona əhəmiyyət vermir. Qarşıdakı insan məni eşitmirsə, nə etməliyəm? Məni məndən başqa kim məhv edə bilər? Qurtuluş yalnız özünüdərk və mənəvi dəyərlərdən asılıdır...

Teatrın aktyorları Nurlan Rüstəmov və Solmaz Bədəlova müəllifləri olduqları tamaşada həm də oyunçu kimi çıxış edirlər.

# Opera və Balet Teatrında baxmağa nə var?

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı yanvar ayında repertuarındakı maraqlı səhnə nümunələrini tamaşaçılara təqdim edir.



Yanvarın 12-də sənət ocağının səhnəsində Ü.Hacıbəylinin 114 yaşı "Leyli və Məcnun" operası nümayiş olunub. Yanvarın 15-də klassik opera həvəskarları italyan bəstəkar Cüzeppe Verdinin "Traviata"sını seyr edə biləcəklər.

Ertəsi gün isə balet həvəskarları rus bəstəkar Sergey Prokofyevin "Romeo və Cülyetta"sını izləmək imkanı qazanacaqlar.

Yanvarın 19-da "Sevil" operası nümayiş olunacaq. Dahi bəstəkar Fikrət Əmirov Cəfər Cabbarlının eyniadlı pyesi əsasında (libretto müəllifi Tələt Əyyubov) yazdığı operanı 1952-ci ildə tamamlayıb. Opera bir il sonra tamaşaya qoyulub və o vaxtdan teatrın repertuarındadır. Hazırda oynanılan tamaşa operanın sonuncu redaksiyasıdır.

Teatrın bu ay üzrə afişasında Adolf Adanın "Jizel" baleti (22 yanvar) və Leonid Vaynşteynin "Zoluşka" operası (23 yanvar) da var.

# "O olmasın, bu olsun"

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında dahi bəstəkar Üzeyir Hacıbəylinin məşhur "O olmasın, bu olsun" ikihissəli musiqili komediyası növbəti dəfə nümayiş olunacaq.



Mədəniyyət Nazirliyinin "Zirvə" mükafatına layiq görülmüş tamaşa Xalq artisti Cənnət Səlimovanın quruluşunda səhnəyə qoyulub. İllərdir səhnədən düşməyən bu komediya hər dəfə böyük maraqla izlənilir, rəğbətlə qarşılanır.

Yanvarın 21-də göstəriləcək tamaşanın quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Nazim Hacıəlibəyov, quruluşçu rəssamı Əməkdar rəssam İsmayıl Məmmədov, quruluşçu baletmeysterləri Əməkdar artistlər Zakir və Yelena Ağayevlərdir.

# Üzeyir bəy ocağının ənənələrini davam etdirənlər

Tarix boyu hər bir xalqın özünəməxsus mədəniyyəti, fikri və düşüncəsi, adət və ənənəsi olub. Bütün bunlar elmin, mədəniyyətin və mənəviyyatın inkişafına öz töhfələrini verib.

Azərbaycanda pedaqogikanın inkişafında M.F.Axundzadə, S.Ə.Şirvani, M.Ə.Sabir, C.Məmmədquluzadə, S.S.Axundov, Ü.Hacıbəyli və başqaları böyük rol oynamışlar. Bu mütərəqqi ziyalılar arasında professional klassik musiqimizin və bəstəkarlıq məktəbimizin təməlini qoymuş dahi Üzeyir Hacıbəylinin xidməti danılmazdır. XX əsrin əvvəllərində Azərbaycanın musiqi təhsili məsələləri xüsusi diqqət tələb edirdi. Ü.Hacıbəyli məqsədyönlü təhsil sistemi Şərq və Qərb musiqi mədəniyyətlərinin qarşılıqlı




əlaqəsi əsasında qurmaqla ölkəmizin musiqi mədəniyyətində köklü dönüş yaratmağa nail olub.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında, digər müəssisələrin, təhsil və elm ocaqlarının müstəsna xidmətləri olduğu kimi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) və onun nəzdində Orta ixtisas musiqi məktəb-studiyasının da böyük rolu var. 2021-ci ildə Bakı Musiqi Akademiyasının 100 yaşı tamam oldu, bu münasibətlə silsilə layihələr, tədbirlər gerçəkləşdi. Yubiley ilinin son günlərində BMA-nın Orta ixtisas musiqi məktəb-studiyasının 40 illik yubileyinə həsr olunan "Təşəkkül və novatorluq" adlı kitabın təqdimatı da keçirildi.

Bir neçə hissədən ibarət olan kitabda məktəb-studiyanın son illər ərzində həyata keçirdiyi müxtəlif tədbirlər haqqında geniş məlumatlar verilir, eyni zamanda bu mövzular ətrafında yazılan resenziya və məqalələr diqqətə çatdırılır. Kitabın redaktorları SSRİ-nin və Azərbaycanının Xalq artisti, professor Fərhad Bədəlbəyli və Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Tərlan Seyidov, tərtibçiləri sənətşünaslıq üzrə fəlsəfə doktorları Sevda Məmmədova və Aytən İbrahimovadır. Kitabda məktəb-studiyanın ölkənin musiqi təhsilinin inkişafında mühüm rolu vurğulanır və burada tətbiq edilən innovativ metodların beynəlxalq səviyyədə qəbul olunmasından söz açılır.

Təqdimatda BMA-nın tədris işləri üzrə prorektoru, Əməkdar müəllim, professor Nərminə Quliyeva, Xalq artisti, professor Ramiz Quliyev, Əməkdar incəsənət xadimi, professor, sənətşünaslıq üzrə fəlsəfə doktoru Zümrüd Dadaşzadə nəşrlə bağlı dəyərli fikirlərini bildirdilər. Məktəb-studiya şagirdlərinin ifasında təqdim olunan maraqlı musiqi nömrələri böyük rəğbətlə qarşılandı.

Əsası 1921-ci ildə qoyulmuş Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyası (indiki BMA) neçə-neçə nəsillərin fərdi istedad və bacarığını üzə çıxaran, insanları doğma, isti bir ocaq kimi öz ətrafında cəmləyən tədris, sənət və elm ocağıdır. BMA-nın Orta ixtisas musiqi məktəb-studiyası isə 1980-ci ildə sənətşünaslıq üzrə elmlər doktoru, professor Tərlan Seyidovun müəllif layihəsi üzrə yaradılıb.

Əsrlər keçsə, nəsillər dəyişsə də, yeni gələn nəsil sənət aləmindəki böyüklərin ənənələrinə sadiq qalaraq onları yaşadır, davam və zəmanəyə uyğun inkişaf etdirirlər. İstər məktəb-studiyanın, istərsə də BMA-nın məzunları musiqi mədəniyyətimizi dünya miqyasında daima yüksək səviyyədə təbliğ edirlər. Onlar öz sələflərinin yolunu bu gün də yeni yaradıcılıq axtarışları apararaq uğurla davam etdirirlər.

**Nərgiz Qulamova**
**musiqişünas**

# Beş yaşında didərgin salındığı doğma yurdu döyüşüb geri aldı...

Vətən müharibəsində öz qanlarıyla tarix yazaraq bizlərə Qələbə sevinci bəxş edən qəhrəmanlardan biri də şəhid mayor Elsevər Vaqif oğlu Paşayevdir.



Elsevər 1988-ci il iyulun 1-də Cəbrayıl rayonunun Qovşudlu kəndində anadan olub. O, beş yaşında ikən düşmən Cəbrayıl rayonunu və onun yaşadığı kəndi işğal edir. Paşayevlər ailəsi öz dədə-baba yurdlarından məcburi köçkün düşərək Beyləqan rayonunda məskunlaşırlar. Elsevər 1994-cü ildə Beyləqan rayon Vilayət Cəfərov adına Milabad kənd orta məktəbinə birinci sinfə daxil olur. Daha sonra təhsilini Beyləqan rayonunda yerləşən Cəbrayıl rayon 21 nömrəli köçkün məktəbində davam etdirir.

Elsevər kiçik yaşlarından ailəsinin, yaxınlarının doğma yurdla bağlı yaşadıqları nisgilə şahid olmuşdu. Evdə, məktəbdə eşitdiyi ancaq Cəbrayıl, Qovşudlu, Qarabağ kəlmələri idi. Orta məktəbi bitirdikdən sonra Elsevər Cəmşid Naxçıvanski adına Hərbi Liseydə və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alır. 2010-cu ildə hərbi məktəbi bitirərək Gəncədə N saylı hərbi hissədə leytenant rütbəsində xidmətə başlayır. İngilis dilini mükəmməl bildiyindən onu Bakıya gətirirlər. Bundan sonra xidməti ilə əlaqədar müxtəlif illərdə Türkiyə, Macarıstan, Bolqarıstan, Almaniya, Çexiya və İngiltərədə kurs və təlimlərə qatılır. Təlimləri uğurla başa vurub beynəlxalq sertifikat və diplomlarla təltif olunur. Son olaraq 2019-cu ilin dekabrında sülhməramlı taborun tərkibində Əfqanıstanda 7 aylıq təlimdə iştirak edir. O, xidməti dövründə fərqləndiyinə görə Azərbaycan Ordusunun yubiley və qüsursuz xidmətə görə medallarına layiq görülür.

Elsevər Paşayev 44 günlük Vətən müharibəsinə kapitan rütbəsi ilə qatılır. Sonra tabor komandiri təyin olunur. Buna baxmayaraq hər zaman öndə, əsgərləri ilə çiyin-çiyinə döyüşür. 2020-ci ilin 4 oktyabrında Cəbrayıl rayonunun işğaldan azad olunmasında xüsusi xidmətləri ilə fərqlənir. Böyük sevinc yaşayır. Çünki ömrünün iyirmi yeddi ilini doğma torpaq həsrətiylə yaşamışdı. Beş yaşında tərk etməyə məcbur qaldığı Cəbrayılı otuz iki yaşında cəsur Vətən oğulları ilə birgə döyüşərək geri alır.

Elsevər Zəngilan və Qubadlı uğrunda döyüşlərdə də fəal iştirak edir. Oktyabrın 20-də Qubadlı döyüşlərində minaya düşür və ağır yaralanır. Qızğın döyüşlər getdiyindən onu dərhal döyüş meydanından uzaqlaşdırmaq mümkün olmadığına görə çoxlu qan itirir. Döyüşlər səngiyəndən sonra ərazidən uzaqlaşdırılır və Ağcabədidə hərbi hospitala gətirilir. Dörd gün komada qalır, həkimlərin səyinə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmur. Yaralandığı gün mayor rütbəsi alan qəhrəman döyüşçü oktyabrın 25-də şəhidlik zirvəsinə ucalır.

2012-ci ildə ailə həyatı quran Elsevərin Nəzrin və Banu adında iki qız övladı var.

Şəhidin həyat yoldaşı Xəyalə Paşayeva qeyd edir ki, Elsevər Vətənini, torpağını sevən əsl hərbçi olub: "Boş vaxtını övladları ilə keçirərdi. Vətən müharibəsi zamanı imkan olduqca bizimlə danışar, hər şeyin yaxşı olduğunu, narahat olmamağımızı söyləyərdi. Elsevərlə sonuncu dəfə oktyabrın 18-də əlaqə saxladım. Mənə "Sən güclü qadınsan, qızlarımızı sənə əmanət edirəm" deyib sağollaşdı. İki gün sonra isə yaralandığını eşitdim...".

Elsevər Paşayev oktyabrın 25-də İkinci Fəxri xiyabanda torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

Allah rəhmət eləsin.

**Nurəddin**

# Şəhid Ayaz Nəzərov doğma kəndində dəfn edilib

Ermənistan silahlı qüvvələrinin yanvarın 11-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində törətdiyi təxribat nəticəsində şəhid olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nəzərov Ayaz Azər oğlu doğulduğu Tovuz rayonunda dəfn edilib.



Yanvarın 12-də Tovuzun Bozalqanlı kəndində şəhidlə vida mərasimi keçirilib.

Mərasimdə rayon İcra Hakimiyyətinin rəhbərliyi, Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları, şəhər sakinləri və şəhidin hərbçi yoldaşları iştirak ediblər.

Vida mərasimindən sonra şəhid Ayaz Nəzərov torpağa tapşırılıb. Şəhidin tabutu üzərində olan üçrəngli Azərbaycan bayrağı ailəsinə verilib.

# "İnanclardan qaynaqlanan ornamentlər"

## Xalça Muzeyində mühazirə

Yanvarın 15-də Azərbaycan Milli Xalça Muzeyində "İnanclardan qaynaqlanan ornamentlər" adlı mühazirə keçiriləcək.

Muzeydən bildirilib ki, mühazirədə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru, muzeyin eksperti, Əməkdar rəssam Məmmədhüseyn Hüseynov xalçımızın inanc sistemindən söhbət açacaq. O, həmçinin din və inancların naxış yaradıcılığına təsirindən ətraflı bəhs edəcək.

Pandemiya ilə əlaqədar yerlər məhduddur. Mühazirədə iştirak üçün öncədən qeydiyyatdan keçmək vacibdir.

# Vəsfə layiq döyüşçü

2909 şəhid, 6 nəfər itkin, minlərlə qazi. Bu, ilk baxışda bir statistika təsiri bağışlayır. Ancaq yox, bunların hərəsi bir insan taleyi, yarıda kəsilən ömür yolu, nisgil qaynağı, itirilən fiziki sağlamlıq deməkdir. Ümummilli mənada isə qürurु hüznündən, fəxri acısından ötə...

Ərazi bütövlüyümüzün bərpa olunduğu, milli-tarixi yaddaşımıza əbədi şanlı Zəfər möhürü vurulan 44 günlük II Qarabağ müharibəsi ilk növbədə Vətən oğullarının rəşadətini, fədakarlığını külli-aləmə nümayiş etdirdi. Haqqında söz açacağım şəhid əsgər Vasif Zahid oğlu Nəzərli də onlardan biri. Ömrünün gül açdığı çağda, 20 yaşında şəhadətə yürüyən Vətən fədailərimizdən.

Vasif Nəzərli 2000-ci il martın 4-də Ağstafa rayonunun Vurğun qəsəbəsində anadan olub. Qanlı 20 Yanvarın tələbə şəhidi Habil Əzizovun adını daşıyan Vurğun qəsəbə tam orta məktəbində təhsil alıb. Məktəb illərində çalışqanlığı, zəhmətsevərliyi və tərbiyəsi ilə kollektivin rəğbətini qazanıb. 2017-ci ildə orta təhsilini başa vurub ödənişli əsaslarla ali məktəbə qəbul olunur. Ancaq ailəsinin maddi çətinlikləri üzündən təhsil ala bilmir.

Vasif 2018-ci ildə hərbi xidmətə yollanır. Naxçıvan MR-in çətin relyef şəraiti olan bölgələrində hərbi xidmət keçir. Əsgərlik dövründə də Vasif öz davranışı və məsuliyyəti ilə əsgər yoldaşları və komandirlərinin hörmətini qazanır. Hərbi xidmətini başa vurduqdan sonra Daxili Qoşunlarda işləmək qərarına gələn Vasif bütün fiziki göstəriciləri lazımınca yerinə yetirsə də, boyunun tələb olunan meyardan 1 sm az olması onun bu arzusunun qarşısında əngələ çevrilir. 2020-ci ildə Gəncə şəhərindəki 1 saylı peşə məktəbinin elektrovoz maşinisti ixtisasına qəbul olunur.

Həmin ilin iyul ayında mənfur düşmən dövlət sərhədinin Tovuz rayonu istiqamətində genişmiqyaslı hərbi təxribat törədir. 12 hərbçimiz şəhid olur. Azərbaycan ilk dəfə bir ali rütbəli hərbçisini itirir – general-mayor Polad Həşimov şəhadətə yüksəlir. Generalımızın itkisindən sarsılan yüzlərlə gənc kimi Vasif də ailəsinə xəbər vermədən könüllü olaraq döyüşlərdə iştirak etmək üçün müraciət edir. Lakin cəbhədə ataşkəs elan edilir və Vasif yağıdan qisas almaq üçün təxminən iki ay gözləməli olur...

Vətən müharibəsinin üçüncü günü, sentyabrın 29-u. Vasifin səbirsizliklə gözlədiyi



məqam yetişir, ona haqq savaşımızda iştirak etmək üçün çağırış vərəqi gəlir. Vasif də son Vətən torpağının azadlığı üçün qanlı döyüşlərə atılır. Mahir pulemyotçu döyüşçü yoldaşları ilə Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının bir sıra kəndlərinin, həmçinin Laçın-Şuşa yolunun işğaldan azad olunmasında igidlik göstərir, neçə-neçə düşmən hərbçisini məhv edir.

Artıq əsas hədəf, ali məram qala-şəhərimiz, mədəniyyət beşiyi Şuşanın düşməndən təmizlənməsi idi. Qəhrəman Ordumuz dünyanın hərb tarixinə yazılacaq Şuşa əməliyyatına başlayır. Şuşa uğrunda döyüşmək, bu müqəddəs torpağa ayaq basmaq cəsur Vasif Nəzərliyə də qismət olur...

Budur, Ali Baş Komandan efir-ekrandan hər an yeni qalibiyyət xəbərləri gözləyən xalqımıza böyük müjdəni verir: "Əziz Şuşa, sən azadsan!". Milyonlarla soydaşımız sevinc göz yaşları axıdır. Vasif də həmin gün Şuşanın qurtuluşu ilə bağlı əkiz qardaşı Asifə zəng edir, anasına sevincinin həddi-hüdudu olmadığını bildirir.

Mümkünsüzü mümkün edən şanlı Ordumuzsa Şuşanın ətrafını düşmənin tör-töküntülərindən təmizləyir, yeni yaşayış məntəqələrimizin azadlığı üçün əməliyyatları davam etdirir. Vasif Nəzərli noyabrın 9-na keçən gecə – işğalçı Ermənistanın kapitulyasiya aktına imza atmasına bir gün qalmış – Şuşa-Laçın yolunda xain düşmənin gülləsinə tuş gələrək şəhid olur.

Noyabrın 13-də Vurğun qəsəbəsinin sakinləri Ana yurda vurğun cəsur övladını ən qiymətli libasda, üçrəngli bayrağa bükülü, həm də Vətən oğullarının çiynində qarşılayır. 28 il dağların dumanı intizarda qalan gözləri də dumana bürüyən Şuşanın səmasını aydınladanlar sırasına adını yazdıran Vasif Nəzərli böyük izdihamla doğulduğu qəsəbədə torpağa tapşırılır.

Vasiflərin qərar tutduğu zirvənin daha bir adı var – ölümsüzlük! Bir şairin yazdığı kimi:

*Ömrü iyirminci baharda durdu,*
*Ömrünə heç xəzan gəlməyəcəkdir.*
*Vasif şəhidlik zirvəsindədir,*
*Əbədiyaşardır, ölməyəcəkdir...*

Anası Elmira Nəzərova Vasifin adı gələndə həmişə fəxr hissi keçirdiyini deyir: "O, heç bir hərəkəti ilə bizi utandırmayıb. Bacısı, əkiz qardaşı ilə elə davranırdı ki, deyərdin bəlkə ailənin böyük övladıdır. Vasif Vətənimizə çox bağlı idi. İndi əsgər yoldaşları bizə gəlir, onun döyüş yolundan, cəsurluğundan ağızdolusu danışırlar. Mən də oğlumla qürur duyuram".

Bacısı Elnurə müəllimə bildirir ki, müharibə başlayanda Vasif Bakıda onların evində olub: "Yaydan könüllü yazılmışdı deyə çox narahat idim. Müharibənin ilk günlərində bir sıra kəndlərimiz azad ediləndə o qədər sevinmişdi ki. Son bir neçə ildə onu elə sevincli görməmişdim. Deyirdi məni niyə aparmırlar, Müdafiə Nazirliyinə zəng vuracağam. Sentyabrın 29-da getdi rayona, oradan da müharibəyə. Qardaşım sonuncu dəfə qızımın ad günündə, 29 oktyabrda zəng vurub təbrik etmişdi. Ailədə heç kimə döyüşdüyünü dəməmişdi. Bizə Şəmkirdə hərbi hissədə olduğunu bildirirdi. Sonra şəhid xəbərini aldıq... Bütün şəhidlərimizin ruhu şad olsun".

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Vasif Nəzərli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Hazırda Vurğun qəsəbəsində ailəsinin yaşadığı küçəyə Vasifin adı verilib. Şəhid qəhrəmanın adı həm də təhsil aldığı məktəbin və Abşeron rayonu Mehdiabad qəsəbə 4 nömrəli tam orta məktəbin bir sinif otağında yaşadılır.

Vəsfə layiq döyüş yolu keçən, yeni nəsillər üçün gerçək örnək olan Vasif Nəzərlilərin xatirəsi həmişə uca tutulacaq.

**Fariz Yunisli**

# Görkəmli ədəbiyyatşünas və pedaqoq

Azərbaycan ədəbiyyatşünaslığına töhfələr vermiş alimlərimizdən biri də filologiya elmləri doktoru, professor Abbas Hacıyev olub. Dəyərli monoqrafiya, dərslik və dərs vəsaitlərinin, ədəbi-tənqidi məqalələrin müəllifi olan görkəmli alim 40 ildən artıq müxtəlif elm-təhsil ocaqlarında çalışıb.

Abbas Məhəmməd oğlu Hacıyev 1 yanvar 1933-cü ildə Gürcüstanın Marneuli rayonunun Sarvan kəndində dünyaya göz açıb. 1 saylı kənd orta məktəbini bitirib 1948-ci ildə Borçalı Türk Pedaqoji Texnikumuna qəbul olunur. 1952-1957-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsində təhsil alır. Universiteti fərqlənmə diplomu ilə başa vuran Abbas Hacıyev təyinatla bir müddət Marneuli rayonunda pedaqoji fəaliyyət göstərir. Həmin dövrdən o, eyni zamanda ictimai sahədə də çalışır. 1959-cu ildə Marneuli Rayon Komsomol Komitəsinin birinci katibi təyin edilir. Borçalıda yaşayan Azərbaycan türklərinin hüquqlarının qorunması, onların mədəniyyəti və təhsilinin inkişafı üçün fədakarlıq göstərir.

Abbas Hacıyev 1961-ci ildə Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutu Ədəbi əlaqələr şöbəsində aspiranturaya qəbul olunur. 1964-ci ildə aspiranturanı müvəffəqiyyətlə bitirir. Görkəmli alim, yazıçı və pedaqoq, professor Mir Cəlal Paşayevin elmi rəhbərliyi ilə 1965-ci ildə "Tiflis ədəbi mühiti (1905-1917-ci illər)" mövzusunda namizədlik (fəlsəfə doktoru) isə 1970-ci ildə "Mirzə İbrahimovun yaradıcılıq yolu" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edir.



1964-cü ildə Azərbaycan Dövlət Dillər İnstitutunda elmi-pedaqoji fəaliyyətə başlayan Abbas Hacıyev sıravi müəllimlikdən professorluğa kimi yol keçir, kafedra müdiri olur. 1979-cu ildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinə dəyişilir, burada Azərbaycan ədəbiyyatı kafedrasına rəhbərlik edir. Azərbaycan ədəbiyyatı tarixi, ədəbiyyat nəzəriyyəsi, ədəbiyyatşünaslığın əsasları, ədəbi tənqid və digər fənlərdən dərs deyir. Bir çox dissertasiya işlərinin elmi rəhbəri, məsləhətçisi, opponenti və rəyçisi olur.

Alim Azərbaycan bədii nəsrinin, dramaturgiya və milli teatr tarixini dərindən araşdıran tədqiqatçılardandır. Onun "Tiflis ədəbi mühiti", "Tiflis Azərbaycan Teatrı", "Tiflis Azərbaycan və Adıgün türk teatrı", "Mirzə İbrahimov", "Yazıçı şəxsiyyəti və bədii qanunauyğunluq", "Ədəbiyyat nəzəriyyəsi", "Ədəbiyyatşünaslığın əsasları", "Sənətkarın yaradıcılıq fərdiliyi", "Bədii əsərin strukturu", "Ədəbi növlər və janrlar", "Ədəbi meyillər və cərəyanlar" adlı monoqrafiya və dərslikləri elmi-ədəbi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilib.

Abbas Hacıyev 1960-cı illərdən dövri mətbuatda çağdaş ədəbi prosesə dair dəyərli məqalələrlə çıxış edib. O, Tiflis Azərbaycan ədəbi, ictimai-mədəni həyatına, Borçalı və Ahıskada fəaliyyət göstərmiş teatr, mətbuat tarixinə, mədəniyyət və sənət xadimlərinin həyatına, eləcə də Azərbaycan-gürcü ədəbi-mədəni əlaqələrinin qaranlıq səhifələrinə arxiv materialları əsasında işıq tutub. Onun tədqiqatları gələcək araşdırmalar üçün uğurlu nəticələr verə bilən yeni istiqamətlərin müəyyənləşməsində rol oynayıb.

Ədəbiyyatşünas alim ali məktəblərin filologiya fakültələri üçün bir çox proqram və dərsliklərin, o cümlədən ali təhsil müəssisələrində tədris məqsədilə ilk sanballı "Ədəbiyyat nəzəriyyəsi" dərsliyinin müəllifidir. Abbas Hacıyev eyni zamanda Bakı Dövlət Universitetinin elmlər doktorluğu və elmlər namizədliyi üzrə alimlik dərəcəsi verən ixtisaslaşmış elmi şuraları, habelə Nizami adına Ədəbiyyat İnstitutu, Təhsil Problemləri İnstitutu nəzdində müdafiə şuralarının, Təhsil Nazirliyi Elmi-metodik şurasının və digər qurumların üzvü olub. Alimin əsərləri haqqında Azərbaycanla yanaşı, Rusiya, Gürcüstan, Türkiyə və digər ölkələr mətbuatında həmkarlarının rəyləri dərc edilib.

Alim Gürcüstan SSR Ali Sovetinin fəxri fərmanı (1961), Azərbaycan Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə (2006) təltif olunub. Professor Abbas Hacıyev 21 yanvar 2011-ci ildə, 78 yaşında vəfat edib.

**Savalan Fərəcov**

# "Qərbi Azərbaycan yaddaşı"

"Qərbi Azərbaycan yaddaşı" layihəsinin əsas məqsədi hazırda Ermənistan Respublikasının nəzarət etdiyi qədim Azərbaycan məskənlərinin tarixi adlarını bərpa etmək, adları dəyişdirilən yaşayış məskənlərimizin mədəni irsini və yaddaşını elektron daşıyıcılara həkk etmək, ötən yüzillikdə 4 dəfə erməni millətçilərinin və sovet imperiyasının təzyiqi altında evlərini tərk etməyə məcbur olmuş insanları virtual məkanda birləşdirərək milləti böyük qayıdışa hazırlamaqdır.

Bu barədə layihənin ideya müəllifi, Qərbi Azərbaycan İcmasının sədri, Milli Məclisin deputatı, filologiya üzrə fəlsəfə doktoru Əziz Ələkbərli məlumat verib.

Layihə Qərbi Azərbaycan İcması və "Sinam" şirkəti tərəfindən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin texniki dəstəyi ilə həyata keçirilir.

Alim bildirib ki, GoMap.Az portalı vasitəsilə həyata keçirilən bu layihənin əsas özəlliyi ondadır ki, Qərbi Azərbaycan ərazisindəki adları dəyişdirilmiş 1000-dən artıq toponimimiz (yaşayış məskənləri, tarixi yerlər, dağ zirvələri, göllər, çaylar və bulaqlar) öz tarixi adları ilə verilir və tarixi yaddaşı bərpa etmək üçün Qərbi Azərbaycan İcmasının və bu bölgə ilə əlaqədar olan bütün soydaşlarımızın səylərini birləşdirir. Layihə XX əsr ərzində bir neçə dəfə öz tarixi yurdlarından qovulmuş soydaşlarımıza bir daha (həlelik virtual da olsa) o yerlərə səyahət etmək, Qərbi Azərbaycanda yaşadıqları şəhər və kəndlərdəki ünvanlarını paylaşmaq, həmin yerlərlə bağlı fotoları dərc etmək və itirilmiş insani əlaqələri bərpa etmək imkanı verir.

# "Kiyev" ədəbi jurnalında Nizami haqqında məqalə

Ukraynada çıxan "Kiyev" ədəbi jurnalında "Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi Ukrayna araşdırmaları və tərcümələrdə" sərlövhəli məqalə dərc edilib.

Jurnalın 2021-ci il üzrə son (dekabr) nömrəsində Nizami Gəncəvinin 880 illik yubileyi ilə bağlı çap olunan məqalənin müəllifi jurnalist, Ukrayna-Azərbaycan layihələrinin kuratoru Marina Qonçarukdur.

Məqalədə Nizaminin həyat və yaradıcılığı, əsərlərinin Ukrayna dilinə tərcümələri, o cümlədən Leonid Pervomayski ("Leyli və Məcnun" poemasının tərcüməçisi), Vasil Barka ("Xosrov və Şirin" poemasından parça), Vasil Mısık ("Sirlər xəzinəsi"ndən parça), Nikolay Tereşenkonun ("Yeddi gözəl" poemasından parça), Mikola Miroşniçenko və Aleksey Kononenko və Yevgeni Mironovun tərcüməsində Nizaminin qəzəlləri haqqında geniş məlumat verilib.

Müəllif yazır: "Ukraynalı alimlərin tədqiqatları ilə daha yaxından tanış olduqca anladım ki, qarşıda hələ çox iş var. Düşünürəm ki, "Nizami ili" Ukraynada mühüm hadisələrlə zəngin idi, Ukraynanın nizamişünaslığa qayıdışı çox vacib idi. Əminəm ki, bu işlər davam edəcək...".

# Qaragöz kuklam

2500 ildən artıq yaşı olduğu deyilən kukla sənəti lap qədimdən mədəni irs nümunəsi kimi sənət növləri arasında məxsusi yer tutmaqdadır. Zamanın ələyindən ələnərək müəyyən dövrlərdə kukla sənəti ayin, oyun və daha sonra teatr alətinə, müasir dövrdə isə həm də bədii sənət əsərinə çevrilib.

...Atası ona kukla alanda gözlərinin qara olmasından çox təəccüblənən Solmaz xanım gəlinciklərin gözlərini qara qələmlə rəngləyər, istədiyi kimi alınmayanda isə "böyüyəndə özüm kukla düzəldəcəyəm" deyərdi. Kiçik qızın arzuları hələ uşaqlıqdan onun gələcəkdə yiyələnəcəyi peşəsinin qığılcımlarının işartısı idi.

Solmaz Musayeva 10 aprel 1928-ci ildə Bakının Mərdəkan kəndində dövrünün tanınmış ziyalılarından olan publisist Qurban Musayevin ailəsində dünyaya gəlmişdi. Böyüdüyü mühit yaradıcı insanlarla əhatə olunmuşdu. Solmaz xanımın əmisi – o vaxt gənc yazıçı olan Qılman İlkinin, xalası oğlu – gələcəyin tanınmış yazıçısı və kino xadimi Həsən Seyidbəylinin Musayevlərin evində tez-tez olması balaca qızın sənət aləminə marağını günbəgün artırmasında müstəsna rol oynamışdı. O, böyüdükcə arzuları da qanadlanır, sənətə olan sevgisi alovlanırdı. Bu minvalla yollar onu Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinə aparır. Burada tanınmış rəssam Maral Rəhmanzadədən qrafika sənətinin sirlərini öyrənir. 1952-ci ildə Rəssamlıq Məktəbini bitirən Solmaz xanım V.Muxin adına Leninqrad (Sankt-Peterburq) Ali Bədii Dekorativ-Tətbiqi Sənət İnstitutunun Keramika fakültəsinə əla qiymətlə daxil olsa da, çox təəssüf ki, ailə vəziyyəti ilə bağlı təhsilini yarımçıq qoymağa məcbur olur.

Solmaz Musayeva 1965-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü olub. Rəssamın fəaliyyətinin əsas dövrü Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı ilə bağlıdır. Bu teatrda 1965-1981-ci illərdə quruluşçu rəssam, 1987-ci ildən isə baş rəssam kimi fəaliyyət göstərib.



Teatrda işlədiyi müddətdə 60-dan çox tamaşaya səhnə tərtibatı verib. Onlardan A.Qaydarın "Malçiş-Kibalçiş", S.Marşakın "Bu kimin evidir?", Ü.Hacıbəylinin "O olmasın, bu olsun", Ə.Abbasovun "Şəngülüm, Şüngülüm, Məngülüm", X.Əlibəylinin "Cunquş", Anarın "Qaravəlli", T.Mütəllibovun "Meşə nağılı", F.Sadığın "Yumaq top", M.Atəşin "Cırtdan", M.Seyidzadənin "Sehrli nar" və s. kimi yaddaqalan, uşaqların sevdiyi tamaşaları qeyd etmək mümkündür.



Solmaz xanımın kukla sənəti üzrə təhsili olmasa da, dünya miqyasında keçirilən kukla teatrı festivallarında iştirak etməsi onun üçün əsl sənət məktəbi olub. Tamilla Məhərrəmova ilə birgə işi olan "Sehrli quyu" tamaşası Cənubi Qafqaz teatrlarının festivalında uğurla nümayiş olunub, "Cunquş" tamaşası Hindistanda, " O olmasın, bu olsun" tamaşası Özbəkistanda böyük rəğbətlə qarşılanıb.

Teatr rəssamlığı ilə yanaşı, Solmaz Musayeva təsviri sənətin digər sahələrində də öz qabiliyyət və istedadını nümayiş etdirərək 6 cizgi filminə quruluş verib. "İlham" kukla cizgi filmi 1974-cü ildə Özbəkistanın paytaxtı Daşkənddə keçirilən beynəlxalq festivalda I dərəcəli diploma, "Göyçək Fatma" kukla cizgi filmi 1976-cı ildə Gürcüstan Rəssamlar İttifaqının xüsusi diplomuna layiq görülüb. Azərbaycanda istehsal olunan ilk kukla cizgi filmlərinin rəssamı olan Solmaz Musayeva bu ekran əsərlərini rejissor Vaqif Behbudovla birlikdə ərsəyə gətirib.

Onun 1993-cü ildə Pakistanda keçirilən Şərq ölkələrinin tətbiqi sənət festivalında təqdim etdiyi gəlinciklər baş örtüklərindən tutmuş çarıqlarına qədər milli koloritdə, Azərbaycanın ayrı-ayrı bölgələrinə məxsus libaslarda olması ilə diqqət mərkəzində olmuşdu. Festivalın ən maraqlı iştirakçısı hesab edilən Solmaz xanım I dərəcəli mükafata layiq görülmüşdü. Azərbaycan rəssamını artıq dünyanın bir çox yerlərində yaxşı tanıyır və onun sənətinə rəğbət göstərirdilər.

Rəssamın 25 kukladan ibarət zəngin koloritli "Azərbaycan qadın toyu" kompozisiyası 1995-ci ildə Səttar Bəhlulzadə adına sərgi salonunda Novruz sərgisində nümayiş etdirilmişdi. Kuklalar sərgi ilə tanış olan Ümummilli lider Heydər Əliyevin çox xoşuna gəlmiş və müəlliflə maraqlanmışdı. Ulu öndər Solmaz Musayevanın istedadını dəyərləndirərək ona işlərində uğurlar arzulamışdı. Rəssam ömrünün sonuna kimi onun yaradıcılığı barəsində deyilmiş xoş sözləri dərin minnətdarlıqla xatırlayırdı. Həmin əsər Avstraliyada keçirilən spartakiada zamanı da ekspozisiyada nümayiş etdirilmişdi.

Solmaz Musayevanın yaradıcılığında "Şuşalı qadına Şirvanlı xanım qonaq gəlib" adlı əsərini xüsusi qeyd etmək lazımdır. Hər iki bölgənin geyimlərindəki özünəməxsusluğu bütün elementlərdə vurğulayan müəllif tamaşaçılarını sanki sehrli aləmə aparır. Əlbəttə, rəssamın hər əsəri haqqında geniş danışmaq mümkündür. Amma onu qeyd etmək lazımdır ki, Şuşa mövzusu hər bir azərbaycanlı üçün incə məqam və həssas mövzudur. Çox təəssüf ki, ömür Solmaz xanıma tarixi Zəfərimizi, Şuşanın azad olunduğu günü görməyə vəfa etmədi. Böyük məhəbbət və xiffətlə yaratdığı "Şuşalı qadına Şirvanlı xanım qonaq gəlib" əsəri hazırda UNESCO qərargahının daimi eksponatıdır.



1987-ci ildən fərdi yaradıcılıqla məşğul olan rəssamın dörd mindən artıq milli etnoqrafik kuklası ölkəmizdə və xaricdə muzeylərdə, şəxsi kolleksiyalarda saxlanılır. Azərbaycan Dövlət Rəsm Qalereyasının kolleksiyasında Solmaz Musayevanın 8 əsəri qorunur.

Solmaz Musayevanın yaradıcılığı dövlət tərəfindən qiymətləndirilmiş, 2007-ci ildə "Əməkdar rəssam" fəxri adına layiq görülmüşdü.

Nağılvarı kompozisiyalar, çoxsaylı obrazlardan ibarət kukla ansambllarının müəllifi Solmaz Musayeva 21 oktyabr 2016-cı ildə vəfat edib.

**Könül Vəliyeva**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının əməkdaşı**

# Yallı: bu sirli aləmə vaqif olduqca...

## Qərbin "timbirlinq"i, yoxsa milli yallımız?



Xalqımızın yaşam tərzini, adət-ənənəsini, mübarizliyini, qorxmazlığını, birlik göstərərək həmişə haqqın, ədalətin və sülhün tərəfdarı olduğunu özündə ehtiva edən dəyərlərimizdən biri də yallı rəqslərimizdir. Yallılar bircə kəlmə söz belə demədən xalqımıza məxsus bütün xüsusiyyətləri – onun kimliyini, tarixini, birlik olub çətinliklərin öhdəsindən mərdliklə gəldiyini, mədəniyyətini – nümayiş etdirən ən qədim xalq yaradıcılığı nümunələrindəndir.

Digər milli rəqslərimiz kimi, yallıların da ifasında şuxluq və məğrurluq nümayiş olunur. Bu cür ifa tərzi, sözsüz ki, xalqımızı fərqləndirən əlamətlərdəndir. Yallılarla cəsarətin, xeyirxahlığın, əmin-amanlığın, sadəliyin, birliyin və bütün bunların təcəssümü sayılan insanpərvərliyin carçısı olduğumuzu göstəririk.

Ana yurdumuzun sinəsində qol-boyun olan dağlara baxanda elə zənn edirsən ki, indicə hərəkətə gəlib yallı gedəcək. Dağların səfi yallı getmək üçün himə bənd olan dəstəyə bənzəyir. Və bu dəstə yalnız və yalnız əməli birlik, söz, əqidə birliyi olanda hərəkətə keçər. Dirilik birlikdə deyilmi?! Deməli, yallılarımız millət olaraq bizim həm də diriliyimiz, canlı həyat tərzimizdir.

Yallılarımız ulusumuzun müdrikliyini, əcdadlarımızın tarix boyu şəxsi mənfəəti üçün deyil, ümummilli məsələlərin həlli üçün milli birliyini, kədər və sevincini özündə ehtiva edən sirli bir aləmdir. Hər bir fərd sevincini böləndə daha çox sevindiyi, kədərini böləndə isə mənən daha çox rahatlandığı kimi, cəmiyyətlər də, millətlər də sevincini və kədərini bölüşə biləndə inkişaf edir, durulur. Və bu inkişaf, bu tərəqqi yalnız və yalnız yallılarımızın rəmzi sayılan birlik nümayiş etdirməklə mümkün olur.

Yallılarımız haqda öyrəndikcə, xalqımıza məxsus bu sirli aləmə vaqif olduqca onun mərdliklərlə dolu tarixini, qədim keçmişini duyur, qürurlu, alnıaçıq gələcəyinə addımlayırsan. Dərk edirsən ki, bu addım, bu tərəqqinin təməlində birlik dayanır.

***

Bu aralar dilimizə təzə düşən, Avropada məşhur olan "timbirlinq" termini ilə rastlaşırıq. Bir qədər vaxt ayırıb bu terminin mənası, semantik anlamı haqqında kiçik araşdırma apardıq. Məlum oldu ki, çağımızda Qərb ellərində də yeni-yeni dillərə düşən bu terminin anlamı "bir olmaq", "kollektivləşmək", "bir işin, bir çətinliyin öhdəsindən birlikdə, kollektiv formada gəlmək" imiş. Bəs babalarımızın, nənələrimizin bir olub toy-büsat qurduğu, birlikdə əziz-xələf qonağını qarşıladığı yallılar tariximizin ən dərin qatlarından süzülüb gələn birliyimiz, cəmiyyət olaraq dayanışma rəmzimiz deyilmi? "Timbirlinq" termininin ifadə etdiyi anlayış min illər öncədən türklərin adəti, gələnəyi imiş. Bu gələnəyi gələcək nəsillərin birliyi, xoş gün-güzəranı və vətənsevər böyüməsi üçün yaşatmalı, əmanət qoymalıyıq. Yeni nəsilləri əmin etməliyik ki, bir xalq, bir dövlət, bir ulus olaraq sahib olduğumuz dəyərləri gələcəyə daşımaq istəyiriksə, milli birlik nümayiş etdirmək mütləqdir. Həmin bu milli birlik isə öz inikasını həm də yallılarımızda tapır.

Azərbaycanın Naxçıvan bölgəsi yallının vətəni hesab olunur. Ölkəmizdə yallı getmək, yallı tutmaq deyildimi, yada ilk olaraq qədim Oğuz yurdu Naxçıvan diyarı düşür. Bu diyarda bir zamanlar yallının 100-dən çox növü mövcud olub. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən yallı sənəti ilə bağlı tədqiqatlar aparılıb, bu irsin beynəlxalq səviyyədə tanıdılması istiqamətində sistemli işlər görülüb. 2020-ci ildə son illər Naxçıvan diyarında ifa olunmuş 94 yallı haqqında Azərbaycan, ingilis və rus dillərində "Yallılar dünəndən bu günə" kitabı işıq üzü görüb. "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti, habelə Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar hazırlanıb aidiyyəti üzrə təqdim olunub. Bütün bunların nəticəsi idi ki, 2018-ci ildə "Yallı" (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" nominasiya faylı UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs üzrə siyahısına daxil edildi. Beynəlxalq ictimaiyyət də gördü ki, qədim yallılarımız bütün bəşəriyyət üçün vacib olan birlik məfhumunu özündə yaşadır.

Yallı təkcə musiqi və rəqs növü deyil. O, qədim oğuz-türk tarixinin başlıca möhürlərindən biri olmaqla eyni zamanda xalqımızın bugünkü varlığıdır. Bəli, xalq olaraq öz varlığımızı qloballaşan dünyamızda məhz milli-mədəni sərvətlərimizlə qoruyub saxlaya bilərik. Buna görədir ki, muxtar respublikada yallılarımızın, ümumən, milli mədəniyyətimizin yaşadılması, tədqiqi və təbliği istiqamətində tədbirlərin görülməsi hər kəs tərəfindən rəğbətlə qarşılanır. İstərdik ki, ölkəmizin hər guşəsində xalq yaradıcılığına, o cümlədən milli birlik rəmzi olan yallılarımıza diqqət göstərilsin. Azərbaycanın bu qədim elində yaşayan insanlar əmindirlər ki, birlik olan yerdə dirilik, dirilik olan yerdə isə dövlətçilik var, inkişaf var... Ölkə və xalq olaraq mövcudluğumuzun məhz milli birlikdən keçdiyinə inanaq və yallılarımızı yaşadaq. Qərbin "timbirlinq"inə deyil, elə öz yallılarımıza aludə olaq. Bunun üçün gərək insanlarımız yeri gələndə əl-ələ verib yallı getməyi bacarsın, bu ulu mirası yaşatsın.

Əziz oxucular, indi özünüz qərar verin: qərblinin birlik nümayiş etdirmək üçün yeni "icadı" olan "timbirlinq"mi, yoxsa xalqımızın min illər öncə yaradıb yaşatdığı yallılarımızmı?...

**Səyyar Məmmədov**
**Naxçıvan MR Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin direktoru**

## Xatirə təqvimi — 14–18 yanvar

### Azərbaycan

**14 yanvar 1879** – Tiflisdə "Ziya" ("Ziyayi-Qafqaziyyə") qəzetinin ilk nömrəsi çapdan çıxıb. Bu, 1877-ci ildə bağlanan "Əkinçi"dən sonra Azərbaycan dilində ikinci qəzet idi. Redaktoru və naşiri Səid Ünsizadə olan həftəlik qəzet 1884-cü ilədək nəşr olundu.

**14 yanvar 1923** – Görkəmli teatr rejissoru, Xalq artisti Tofiq Səməd Mənsur oğlu Kazımov (1923 – 2.8.1980) Bakıda anadan olub. Gənc Tamaşaçılar, Rus Dram, Musiqili Komediya teatrlarında tamaşalar hazırlayıb. Akademik Dram Teatrının baş rejissoru olub. "Antoni və Kleopatra" (V.Şekspir, 1965), "Şəhərin yay günləri" (Anar, 1979) əsərlərinin tamaşalarına görə Dövlət mükafatına layiq görülüb.

**14 yanvar 1952** – Məşhur şair Almas İldırım (İldırım Əbdülməhəmməd oğlu Almaszadə; 25.3.1907 – 1952) Türkiyənin Elazığ şəhərində dünyasını dəyişib. İstiqlal ruhlu şeirlərinə görə 1930-cu ildə Yazıçılar Birliyindən xaric edilərək Türkmənistana sürgün edilmiş, 1933-cü ildə İrana, oradan Türkiyəyə mühacirət etmişdi.

**14 yanvar 1982** – Şuşa şəhərində böyük şair Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya evinin açılışı keçirilib. Mərasimlərdə respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev çıxış edib.

**15 yanvar 1904** – Əməkdar artist Cabbar Əli oğlu Əliyev (1904 – 30.11.1973) Naxçıvanda doğulub. Akademik Dram Teatrının aktyoru olub, filmlərdə ("Qızmar günəş altında", "Qaraca qız" (Piri baba), "Görüş) çəkilib.

**15 yanvar 1907** – Aktyor, dramaturq, Əməkdar artist Məcid Baba oğlu Şamxalov (1907-1977) anadan olub. Akademik Dram Teatrında çalışıb. "Qayınana" komediyasının müəllifidir.

**15 yanvar 1914** – Yazıçı Ənvər Yusif oğlu Qasımov (1914-1989) Yevlax rayonunda anadan olub. Əsərləri: "Düşmənimin düşməni", "Cərrahlar" (roman) və s.

**15 yanvar 1936** – Yazıçı-publisist, tərcüməçi Vaqif Məmmədyusif oğlu Musa (1936-1996) Quba rayonunun Rustov kəndində anadan olub. "Bəyim çayı boyunca", "Səhər mehi" və s. romanların müəllifidir.

**16 yanvar 1905** – Yazıçı Üm-əl-Banin (Ümmülbanu Mirzə qızı Əsədullayeva; 1905-1994) anadan olub. Neft milyonçuları Şəmsi Əsədullayevin və Musa Nağıyevin nəvəsidir. Azərbaycanın sovetləşməsindən sonra ailəsi ilə Fransaya mühacirət edib, fransız dilində yazıb: "Qafqaz günləri", "Sonuncu ümidin çağırışı" və s.

**16 yanvar 1944** – Tanınmış ədəbiyyatşünas, türkoloq, ictimai xadim Aydın Mirsaleh oğlu Məmmədov (1944 – 20.4.1991) Şəki rayonunun Kiş kəndində doğulub. Ali Sovetin deputatı olub. Deputat həmkarı Dilarə Əliyeva ilə birlikdə Qax rayonu ərazisində avtomobil qəzasında həlak olub.

**17 yanvar 1922** – Tağıyev teatrında (indiki Akademik Musiqili Teatr) təmir-bərpadan sonra (bina 1918-ci il hadisələrində yandırılmışdı) Azərbaycan Dövlət Dram Teatrının ilk tamaşası – M.F.Axundzadənin "Hacı Qara" komediyası göstərilib. Təntənəli açılış gecəsində dövlət rəsmiləri (xalq maarif komissarı Dadaş Bünyadzadə) ilə bərabər teatrın binasının keçmiş sahibi Hacı Zeynalabdin Tağıyev də iştirak edib.

**17 yanvar 1926** – Tanınmış şairə Mədinə Gülgün (Mədinə Nurulla qızı Ələkbərzadə; 1926 - 17.2.1991) Bakıda anadan olub. 1938-ci ildə ailəsi Cənubi Azərbaycana köçüb, orada milli azadlıq hərəkatının (1941-1946) iştirakçısı olub. 1947-ci ildə Bakıya gəlib. "Təbrizin baharı", "Xatirələrimin nəğməsi", "Dünyamızın sabahı" və s. kitabların müəllifidir.

**17 yanvar 1929** – Azərbaycan milli teatrının ilk peşəkar aktyorlarından Mirzə Muxtar Məmmədov (1841-1929) vəfat edib. Şuşada doğulub, 1874-cü ildə Şuşada M.F.Axundzadənin "Hacı Qara" komediyasının tamaşasına quruluş verib, müxtəlif truppalarda aktyorluq edib.

**17 yanvar 1942** – Musiqişünas, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Əməkdar müəllim Səadət Ağaməmməd qızı Seyidova (1942-2020) Bakıda doğulub.

**18 yanvar 1925** – Tarixçi alim, pedaqoq Qasım Səfər oğlu Qasımov (1925 – 2.11.1991) anadan olub.

**18 yanvar 1927** – Xalq artisti, dirijor Kamal Cahanbaxış oğlu Abdullayev (1927 – 5.12.1997) anadan olub. Akademik Opera və Balet Teatrında çalışıb.

**18 yanvar 1928** – Musiqişünas, sənətşünaslıq doktoru, Əməkdar elm xadimi Ağa Əhməd İsa oğlu İsazadə (1928-2007) anadan olub.

**18 yanvar 1941** – Xalq artisti, Dövlət mükafatı laureatı, kinorejissor, ssenarist Eldar Tofiq oğlu Quliyev (1941 – 16.4.2021) Bakıda doğulub. "Bir cənub şəhərində", "Sevinc buxtası", "Babək", "Gümüşgöl əfsanəsi" və s. filmlərə quruluş verib. Mədəniyyət və İncəsənət Universitetinin professoru olub.

**18 yanvar 1983** – Yazıçı-dramaturq, publisist Seyfəddin Dağlı (Seyfəddin Əliağa oğlu Abbasov; 27.8.1921 – 1983) vəfat edib. "Adı sənin, dadı mənim", "Aydınlığa doğru", "Mənziliniz mübarək" və s. pyeslərin müəllifidir.

**18 yanvar 2002** – Görkəmli bəstəkar, pedaqoq, Xalq artisti, professor Cövdət İsmayıl oğlu Hacıyev (18.6.1917 – 2002) vəfat edib. Azərbaycanda simfonik musiqinin yaradıcılarından biridir, Q.Qarayevlə birlikdə yazdığı "Vətən" operasına görə SSRİ Dövlət mükafatına layiq görülüb.

### Dünya

**14 yanvar 1818** – Görkəmli fin yazıçısı və şairi Zaxarias Topelius (1818-1898) anadan olub. "Hersoginya Finlyandskaya", "Ulduzların uşaqları" və s. romanların müəllifidir.

**14 yanvar 1895** – Başqırd ədəbiyyatının banilərindən biri, şair Şeyxzadə Babiç (1895-1919) anadan olub.

**15 yanvar 1622** – Fransız dramaturqu Jan-Batist Molyer (Jean Baptiste Poquelin; 1622 – 17.2.1673) anadan olub. Avropa ədəbiyyatında klassik komediya janrının banisi sayılır. Əsərləri: "Tartüf", "Psixeya", "Don-Juan", "Zorən təbib", "Xəsis" və s.

**15 yanvar 1850** – Rumın ədəbiyyatının klassiki, şair Mixay Eminesku (Mihai Eminescu; 1850 – 15.6.1889) anadan olub.

**15 yanvar 1902** – Türk şairi, dramaturq Nazim Hikmət (1902 – 3.6.1963) anadan olub. Siyasi baxışlarına görə 1951-ci ildə SSRİ-yə mühacirət edib. Məzarı Moskvadadır. Şairin "Məhəbbət əfsanəsi" pyesinin motivləri əsasında bəstəkar Arif Məlikov eyniadlı balet yazıb. Əsərləri əsasında "Yaşamaq gözəldir, qardaşım", "Bir məhəlləli iki oğlan" ("Azərbaycanfilm"), "Məhəbbətim, kədərim mənim" ("Mosfilm") filmləri çəkilib.

**16 yanvar 1749** – İtalyan şairi və dramaturqu Vittorio Alfieri (1749-1803) anadan olub. Əsərləri: "Kleopatra", "Orest", "Aqamemnon", "Mariya Stüart" və s.

**17 yanvar 1863** – Rus teatrşünası, rejissor, pedaqoq Konstantin Sergeyeviç Stanislavski (Alekseyev; 1863-1938) anadan olub.

**17 yanvar 1933** – İtalyan əsilli Fransa müğənnisi Dalida (İolanda Kristina Cilotti – Yolanda Christina Gigliotti; 1933-1987) Misirdə doğulub. Fransız və ərəb dillərində populyar mahnılar oxuyub.

**18 yanvar 1689** – Fransız filosofu Şarl Lui de Monteskye (Charles-Louis de Secondat, Baron de La Brede et de Montesquieu; 1689-1755) anadan olub.

**18 yanvar 1882** – İngilis yazıçısı, uşaqlar üçün məşhur "Vinni Pux" əsərinin müəllifi Alan Aleksandr Miln (Alan Alexander Milne, 1882-1956) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

№3 (1876)
14 yanvar 2022
www.medeniyyet.az

# "İRS" jurnalı ivrit dilində Azərbaycanın Qarabağ Zəfərindən bəhs edir





Azərbaycanın tarix və mədəniyyətinin xaricdə təbliği ilə məşğul olan "İRS" jurnalının İsraildə ivrit dilində çapdan çıxan növbəti nömrəsi Azərbaycanın İkinci Qarabağ müharibəsində Zəfərinə həsr olunub.

Jurnalın baş redaktoru Musa Mərcanlı ön sözdə İkinci Qarabağ müharibəsindən bəhs edərək yazır ki, Ermənistan tərəfdən Azərbaycan torpaqlarının işğalı əbədi davam edə bilməzdi. Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində otuz illik işğala son qoydu.

Nəşrdə Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimovun "Qarabağın azad olunması ilə bütövləşən Azərbaycan mədəniyyəti" başlıqlı məqaləsi də verilib. Məqalədə Qarabağın keçmişindən, buradakı qədim alban xristian mədəniyyətinə aid abidələrdən, diyarın yeni tarixindən söz açılır.

Jurnalda "Müharibə və sülh" adlı başqa bir məqalədə isə 44 gündə əldə olunan Zəfərin analizi aparılır, Azərbaycanın haqlı mövqeyi və Vətən müharibəsinin arxasında duran milli birlik haqqında danışılır.

İsraillə Azərbaycan arasında möhkəm, səmimi dostluq münasibətləri ildən-ilə güclənir. Bu dostluğun zəngin tarixi və mədəni kökləri var. Buna ən bariz nümunə qədim zamanlardan Azərbaycanda yerli xalqla multikulturalizm və tolerantlıq, mehribanlıq şəraitində yaşayan dağ yəhudiləridir.

"İRS"in ivrit dilində yeni nömrəsində dağ yəhudilərinə, onların mədəniyyətinə və Azərbaycanın multikultural palitrasında yerinə həsr olunmuş material da oxucuların diqqətini cəlb edəcək. Tarix üzrə fəlsəfə doktoru Səbuhi Əhmədovun müəllif olduğu məqalədə Qubanın Qırmızı qəsəbəsində yaşayan dağ yəhudilərinin tarixi ilə bağlı maraqlı faktlar açıqlanır, nadir şəkillər oxuculara təqdim edilir.

Jurnalın İsrail üzrə məsul redaktoru, "İsraildə Azərbaycan Evi"nin icraçı direktoru, beynəlxalq münasibətlər üzrə ekspert Arye Qutun verdiyi məlumata görə, "İRS"in ivrit dilindəki bu nömrəsinin geniş təbliğatı olacaq. Çünki bu ölkədə çoxsaylı azərbaycansevər insanlar və ələlxüsus da böyük diasporumuz var. Onlar nəşrdən Azərbaycan tarixi, mədəniyyəti, turizm potensialı, Qarabağ həqiqətləri haqqında müfəssəl məlumatı əldə edə bilərlər.

"Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bir neçə dəfə olmuşam. İlk andan belə bir hiss var idi ki, erməni ordusu bu ərazilərdə yandırılmış torpaq taktikasını həyata keçirib. Bütün bu 27 il ərzində işğalçı erməni ordusu talançılıq və vandalizmlə məşğul olaraq Ağdam, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan kimi şəhərləri yer üzündən silib...

Vaxtilə küçələrin və evlərin, məktəblərin və muzeylərin olduğu yerdə mən indi yalnız işğalçı erməni ordusunun yandırdığı qapı dirəklərini və sütunlarını, sökülmüş pəncərə çərçivələrini gördüm. Əgər ermənilər bu torpaqları özününkü adlandırırlarsa, o halda niyə bu ərazilər kabus-şəhər kimi görünür, niyə onlar bu şəhərləri nəhəng sayda mina ilə və tank üçün tunellərlə qoyub gediblər, görəsən, ermənilərdə vətən belə kabus görünürmü?", – deyə Arye Qut belə bir ritorik sualla müraciət edir.

Jurnalın yeni nömrəsində oxucular İkinci Qarabağ müharibəsinin uğurları ilə bərabər Azərbaycanın mədəniyyətinə, incəsənətinə, görməli yerlərinə aid digər məqalələrlə də tanış ola bilərlər. Azərbaycan Turizm Agentliyinin İsraildə fəaliyyət göstərən nümayəndəliyinin dəstəyi ilə ölkəmizin turistik potensialı ilə bağlı böyük məqalə də dərc olunub.

## "Qremmi"nin növbəti təqdimatı ertələnib

Yanvarın 31-də Los-Ancelesdə keçirilməsi nəzərdə tutulan "Qremmi" mükafatlarının təqdimat mərasimi koronavirusun "omikron" ştamminın sürətlə yayılmasına görə təxirə salınıb. Bu barədə ABŞ-ın Amerika Səsyazma Şirkətləri Assosiasiyası məlumat yayıb.



Qeyd olunub ki, ölkədə yaranmış vəziyyəti təhlil etdikdən sonra assosiasiya və "CBS" telekanalı 64-cü "Qremmi" mükafatlarının təqdimatını təxirə salıb. Təşkilatçılar mərasimin tarixinin yaxın günlərdə açıqlanacağını bildiriblər.

"Qremmi" musiqi dünyasının ən nüfuzlu müsabiqəsi sayılır. Mükafat 1958-ci ildə Amerika Səsyazma Şirkətləri Assosiasiyası tərəfindən təsis edilib. Mükafat 30 musiqi janrı üzrə ümumilikdə 100-dən çox kateqoriyada təqdim edilir.

DÖRD İL ARADAN SONRA

## "Oskar" mərasiminin aparıcısı olacaq

Amerika Kino Akademiyasının "Oskar" mükafatlarının təqdimetmə mərasimi 2018-ci ildən bəri ilk dəfə olaraq aparıcının iştirakı ilə keçiriləcək. Bu barədə tədbiri yayımlayacaq ABC telekanalı məlumat yayıb. Lakın aparıcının kimliyi hələlik dəqiqləşdirilməyib.




94-cü "Oskar" mükafatlandırma mərasimi martın 27-də ənənəvi olaraq Los-Ancelesdəki "Dolby Teatrı"nda keçiriləcək. Namizədlərin adları – müvafiq nominasiyalar üzrə qısa siyahı fevralın 8-də açıqlanacaq.

Qeyd edək ki, sonuncu dəfə 2018-ci ildə "Oskar"ın aparıcısı komediya ustası, aktyor və ssenarist Cimmi Kimmel olub.

## Qazlı içkilərdəki xərçəng

Qazlı içkilər xərçəng riskini iki dəfə artırır. Böyük Britaniyada tibb, sağlamlıq və elmi araşdırmalar haqqında məlumatlar dərc edən "Gut" jurnalının yazdığına görə, gündə iki dəfədən çox qazlı və sərinləşdirici içkilərdən istifadə bağırsaq xərçənginin inkişaf riskini iki dəfə artırır.

Araşdırmalar zamanı müəyyən edilib ki, ABŞ əhalisinin təxminən 12 faizi hər gün bu içkilərdən üç porsiyadan çox istifadə edir.

Son illərdə bağırsaq xərçənginə bağlı ölümlərin artdığına diqqət çəkən mütəxəssislər, yoğun bağırsaqla inkişaf etməyə başlayan xərçəng növünün ilk olaraq "polip" ilə ortaya çıxdığını vurğulayıblar. Mütəxəssislər bütün poliplərin xərçəngə çevrilmədiyini bildirsələr də, erkən diaqnozun vacibliyini də qeyd ediblər.

Jurnalda dərc edilən araşdırma şəkərlə şirinləşdirilmiş içkilərlə xərçəng arasında əlaqəni də ortaya qoyub. Aparılan tədqiqatlar nəticəsində müəyyən edilib ki, sə-



rinləşdirici içkilərlə yanaşı meyvə ətirli, enerji içkiləri də sağlamlıq üçün ciddi təhlükə yaradır.

## 60 milyonluq "İşıq imperiyası"

Belçikalı sürrealist rəssam Rene Maqrittin (1898-1967) "İşıq imperiyası" tablosu 60 milyon dollardan çox qiymətə hərraca çıxarılacaq. Bu barədə Londondakı "Sotheby's" hərrac evi məlumat yayıb. Hərrac martın 2-də keçiriləcək.



Hərrac evi rəssamın 1961-ci ildə çəkdiyi mənzərəni şəxsi əllərdə saxlanılan müasir incəsənətin ən çox arzulanan əsərlərindən biri kimi dəyərləndirib.

Rəsmdə toran vaxtı villa təsvir edilib. Evdə artıq işıq, binanın qarşısında isə ağ buludlu parlaq səma ilə ziddiyyətdə olan fənər yandırılıb.

## Dörd min il əvvələ aid tikili aşkarlanıb

Misirli arxeoloqlar Sinay yarımadasında eramızdan əvvəl 2040-1780-ci illərə (Qədim Misirin orta krallıq dövrü) aid tikili aşkar ediblər.



Misirin Qədim Abidələr Ali Şurasının sədri Mustafa Vəziri dörd min il əvvəl bu ərazidə qədim Misirdə səma tanrısı Hatorun məbədinin də olduğunu bildirib. O əlavə edib ki, hazırda Əl-Nəsb vadisində arxeoloji qazıntılar davam edir.

Arxeoloqların rəyinə görə, son Roma dövründə bu tikili su qıtlığı səbəbindən tərk edilib və sonradan mis emalatxanası kimi istifadə olunub. Evin iki zalı, iki kiçik otağı və qumdaşından olan çardağı var. Burada mis filizi, dörd ədəd düzbucaqlı mis külçə, çoxlu məişət əşyaları və mis emal etmək üçün sobalar da tapılıb.

Sinay yarımadasının Əl-Nəsb vadisi o zamanlar böyük misəritmə məkanı olub. Bundan başqa, vadidə çoxlu sayda qaya kitabələri də mövcuddur.

**Cavid**

1935-ci İLDƏ ABŞ-a APARILIB

## İran gil kitabəni geri tələb edir

İran ABŞ-dan Əhəmənilər dövrünə (e.ə. 705-330 illər) aid gil kitabənin qaytarılmasını tələb edir.

İranın BMT yanındakı daimi nümayəndəsi Məcid Təxtrəvanc bildirib ki, 90 il əvvəl ABŞ-ın Çikaqo Universitetinin əməkdaşları Şiraz yaxınlığındakı qədim Persopolis şəhərində arxeoloji qazıntı işləri apararaq bir neçə dəyərli tarixi abidə aşkar ediblər. Əhəməni imperiyası dövrünə aid gil kitabəni amerikalı alimlər 1935-ci ildə İrandan çıxararaq tədqiq etmək üçün ABŞ-a aparıblar. Lakin tədqiqat işləri başa çatsa da, gil kitabə İrana qaytarılmayıb.

İranlı diplomatın sözlərinə görə, ölkənin elmi qurumları bir neçə dəfə Çikaqo Universitetinə və ABŞ rəsmilərinə tarixi abidənin qaytarılması ilə əlaqədar müraciət ediblər. Lakin hər dəfə müxtəlif bəhanələr gətirilib



və gil kitabə İrana qaytarılmayıb. İran diplomatları ölkə tarixinə aid olan abidənin qaytarılması istiqamətində işləri davam etdirəcək.

Xronoqraf

# Tarixdə bu gün

Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 322 il əvvəl...

**17 yanvar 1700-cü ildə** Rusiya çarı I Pyotr ölkə əhalisinin Avropa geyiminə keçməsinə dair fərman verib. Məcburi qaydada həyata keçirilən fərman Rusiyanın avropalaşmasının başlanğıcı idi. I Pyotrun göstərişi ilə boyarların hamısı saqqalını kəsdirməli idi. Buna qarşı çıxanları ağır cəzalar gözləyirdi.



### 300 il əvvəl...

**16 yanvar 1732-ci ildə** Səfəvi dövləti ilə Osmanlı imperatorluğu arasında Qafqaza nəzarət uğrunda növbəti müharibənin yekunu olaraq Kirmanşah sülh müqaviləsi bağlanıb. Müqavilənin şərtlərinə əsasən, Azərbaycanın İrəvan, Naxçıvan, Gəncə, Şamaxı və Şirvan bölgələri Osmanlı imperatorluğunun, Kirmanşah, Ərdəbil və Təbriz bölgələri isə Səfəvi dövlətinin nəzarətinə keçib.

### 221 il əvvəl...

**18 yanvar 1801-ci ildə** Gürcü knyazlığı (Kartli-Kaxeti) Rusiyaya birləşdirilib. Çar I Pavel bununla bağlı fərman imzalayıb. Rusiya imperiyasının Cənubi Qafqaza yürüşü başlanıb.

### 151 il əvvəl...

**18 yanvar 1871-ci ildə** Prussiya kansleri (baş naziri) Otto Bismarkın səyləri ilə alman torpaqlarının birləşdirilməsi başa çatıb. Prussiya ətrafında birləşən Almaniya imperiyasının yarandığı rəsmən elan edilib. Prussiya kralı I Vilhelm isə birləşmiş Almaniyanın imperatoru kimi taxta çıxıb. Otto Bismark imperiyanın kansleri olub.

### 102 il əvvəl...



**11 yanvar 1920-ci ildə** I Dünya müharibəsinin yekunlarına həsr olunmuş Versal (Paris) Sülh Konfransının Ali Şurasında Böyük Britaniyanın xarici işlər naziri Kerzonun təklifi ilə Azərbaycan Xalq Cümhuriyyətinin tanınması barədə qərar qəbul olunub. Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun başçılıq etdiyi nümayəndə heyəti Qərb dairələri ilə aparılan birillik gərgin danışıqlardan sonra buna nail olmuşdu. Paris Sülh Konfransının rəsmi qərarı yanvarın 15-də Azərbaycan nümayəndə heyətinə rəsmən təqdim edilib.

### 76 il əvvəl...



**18 yanvar 1946-cı ildə** Londonda Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin 1-ci sessiyası işə başlayıb. BMT-nin ali qurumu üç il Londonda fəaliyyət göstərmişdi. 1949-cu ildə BMT-nin Baş Məclisi ABŞ-a, Nyu-Yorkdakı indiki binasına köçdü.

### 74 il əvvəl...

**12 yanvar 1948-ci ildə** ABŞ-ın Ali Məhkəməsi qaradərililərin ağdərililərlə eyni məktəbdə oxumasına icazə verən qərar çıxarıb. Birləşmiş Ştatlarda irqi ayrı-seçkilik rəsmən bu tarixdə ləğv edilsə də, reallıqda 60-cı illərədək davam edib.

### 60 il əvvəl...

**15 yanvar 1962-ci ildə** Qazaxıstan SSR ərazisində Sovet İttifaqının ən böyük nüvə sınağı meydanı – Semipalatinsk poliqonu istifadəyə verilib. Poliqonda ilk yeraltı partlayış həyata keçirilib. SSRİ-də nüvə silahlanmasına vüsət verilib.

### 35 il əvvəl...

**13 yanvar 1987-ci ildə** SSRİ Nazirlər Soveti xarici sərmayədarların iştirakı ilə birgə müəssisələr yaratmağa icazə verən qərar qəbul edib. Sovet dövləti qapalı sosialist iqtisadi sisteminin perspektivsizliyini etiraf etməyə məcbur olub.

### 30 il əvvəl...

**14 yanvar 1992-ci ildə** Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında diplomatik əlaqələrin qurulmasına dair protokol imzalanıb. Bu, müstəqil Azərbaycanın imzaladığı ilk diplomatik sənəd idi. 1991-ci il noyabrın 9-da Azərbaycanın müstəqilliyini ilk tanıyan Türkiyə olmuşdu.

**15 yanvar 1992-ci ildə** Avropa İttifaqı Yuqoslaviya Federasiyasının subyektləri olan Sloveniya və Xorvatiyanın müstəqilliyini tanıyıb. Yuqoslaviyanın parçalanması faktı rəsmiləşib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5067
**Sifariş:** 130
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.